## Müharibə Ukrayna iqtisadiyyatına 120 milyard dollar ziyan vurub



**Rusiya Ordusunun Ukraynanın infrastrukturuna vurduğu ziyan ən azı 120 milyard dollar, yaxud 3,6 trilyon qrivna təşkil edir.**

Bu barədə "Rada" telekanalının efirində iqtisadiyyat naziri Denis Kudin açıqlama verib.

*Kudin müharibənin ilk günündən ölkəyə dəyən zərəri hesablamağa başladıqlarını vurğulayıb.*



## Azərbaycan Türkiyədən təyyarələr ala bilər

**"Azərbaycan Türkiyədən bütün növ silahlar, o cümlədən "Hurkuş" təlim təyyarələri ala bilər".**

Bunu "Report"un yerli bürosuna açıqlamasında Türkiyə Müdafiə Sənayesi İdarəsinin rəhbəri İsmail Demir deyib.

"Bu, hər an reallaşa bilər", - o vurğulayıb.



## 9 gün ardıcıl iş olmayacaq

### Novruz bayramı ilə bağlı qeyri-iş günləri açıqlanıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti Novruz bayramı ilə bağlı qeyri-iş günlərini açıqlayıb.**

Nazirlər Kabinetinin "2022-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" qərarına əsasən, 2022-ci il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramıdır.

Martın 20-si bazar gününə təsadüf etdiyi üçün Əmək Məcəlləsinə əsasən iş və istirahət günlərinin yeri dəyişdiriləcək, 25 mart qeyri-iş günü olacaq.

Beləliklə, 19, 26 və 27 mart tarixləri də şənbə gününə təsadüf etdiyi üçün Novruz bayramı ilə əlaqədar 9 gün ardıcıl (20, 21, 22, 23, 24, 25, 26 və 27 mart) iş olmayacaq.


❐ № 46 (5568), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 12 mart 2022-ci il (şənbə)




## 35 dəqiqə media üçün qapalı görüş keçirilib

### Türkiyə Prezidenti NATO-nun Baş katibini qəbul edib

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO-nun Baş katibi Yens Stoltenberqi qəbul edib.**

Media üçün qapalı keçirilən görüş 35 dəqiqə davam edib.

Qəbulda Türkiyənin vitse-prezidenti Fuat Oktay, xarici işlər naziri Mövlud Çavuşoğlu, Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fahrettin Altun, Türkiyə Prezidentinin mətbuat katibi İbrahim Kalın və Türkiyənin Ədalət və İnkişaf Partiyasının sözçüsü Ömər Çelik iştirak ediblər.

*Qeyd edək ki, Antalya Diplomatiya Forumu (ADF) Türkiyə Prezidentinin himayədarlığı ilə bu ölkənin Xarici İşlər Nazirliyi tərəfindən təşkil olunub.*

## "Bizim təkliflərimiz masanın üzərindədir"

### Hikmət Hacıyev: "Ermənistan qərar qəbul etməlidir"



**"Təxribatlar hər zaman Ermənistan tərəfindən olur".**

Bunu APA-ya Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

"Son zamanlarda da müəyyən bir gərginliklərin yaradılması kimi halları müşahidə etməkdəyik", - Hikmət Hacıyev qeyd edib. Prezidentin köməkçisi deyib ki, bizim Ermənistanla sülh müqaviləsinə dair təkliflərimiz masanın üzərindədir. Ermənistan qərar qəbul etməlidir. "Amma Ermənistan tərəfindən qəbul edildiyinə şahid olmuruq", - Prezidentin köməkçisi qeyd edib. O, bir daha Azərbaycanın hər zaman təmaslara, danışıqlara açıq olduğunu bəyan edib.

## Co Bayden: "Biz Rusiya iqtisadiyyatını çökdürdük"

### "Putinlə hesab çəkmək üçün onu küncə sıxışdıracağıq"



"Bu atacağımız son addımlar deyil, Putinə daha çox zərbə vuracağıq"

**ABŞ prezidenti Co Bayden Ağ Evdə keçirdiyi mətbuat konfransında Rusiyaya qarşı tətbiq olunacaq yeni sanksiyaları açıqlayıb.**

Bayden bildirib ki, bunlar Rusiyanın iqtisadiyyatını çökdürəcək:

"Putini hesaba çəkmək üçün onu küncə sıxışdıracağıq. Onun Beynəlxalq Valyuta Fondu və Mərkəzi Bankdan borc almasına mane olacağıq. Bu atacağımız son addımlar deyil. Spirt, almaz və dəniz məhsullarının idxalını dayandırırıq. Biz Putinə daha çox zərbə vuracağıq. Moskva birjası iki həftədir açılmır. Dollar 200 rubl olub. Çünki bilirlər ki, açılandan sonra müflisləşəcək. Beynəlxalq kredit reytinq agentlikləri Rusiyanı zibilliyə çeviriblər. Birjalar 200 rubla çevrilib. Biz Rusiya iqtisadiyyatını məhv etdik".

(səh.3)

## Haqlarını alıb, icazə verirlər

### Qanunsuz tikililərdən bütün icra başçılarının xəbəri var



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən qanunsuz tikililər məsələsinə də toxundu.**

Prezident qeyd etdi ki, son vaxtlar bu məsələyə ciddi nəzarət var, dövlət tərəfindən bütün bu məsələlər tənzimlənir və icazəsiz, qanunsuz tikililərin sayı xeyli azalıb:

"Amma hələ də belə hallar var və mən bütün qurumları, dövlət qurumlarını və sahibkarları xəbərdar etmək istəyirəm ki, buna yol verilməyəcək. Xüsusilə sahibkarlara müraciət edirəm, qazanc dalınca getmək o demək deyil ki, biz unikal şəhərimizi eybəcər binalarla korlayaq.

(səh.4)



## Bolqarıstan Parlamentində Xocalı soyqırımı ilə bağlı Bəyannamə qəbul edilib

**Xocalı soyqırımı ilə bağlı Bolqarıstan Respublikasının Parlamentində Bəyannamə qəbul edilib.**

Bu barədə APA-ya Azərbaycanın Bolqarıstandakı səfirliyindən xəbər verilib.

Qeyd edilib ki, 10 mart 2022-ci il tarixində Bolqarıstan Respublikasının Xalq Məclisində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Bəyannamə qəbul olunub. Bəyannamədə Xocalı qətliamı nəticəsində qətlə yetirilmiş 613 nəfər, həmçinin mindən çox yaralanmış və itkin düşmüş şəxslərin xatirəsi ehtiramla anılır və baş vermiş kütləvi qırğın qətiyyətlə pislənilir.

## Ermənistan sülh danışıqlarına başlamaq istəyir

### İrəvan bununla bağlı Minsk qrupuna müraciət edəcək



**Ermənistan təzliklə Azərbaycanla sülh danışıqlarına başlamaq məsələsi ilə bağlı ATƏT-in Minsk Qrupunun həmsədrlərinə müraciət edə bilər.**

Bunu cümə günü Ermənistan Xarici İşlər Nazirliyi açıqlayıb. "Sənədin imzalanmasından əvvəl, əlbəttə ki, bu mövzuda danışıqlar prosesi aparılmalıdır. Və hər iki tərəfin bəyanatları hələ danışıqlar prosesinə çevrilməyindən, ölkələrin birbaşa danışıqlarda zəngin təcrübəsi olmadığından, Ermənistan yeqin ki, yaxın gələcəkdə vasitəçilərə (ATƏT-in Minsk Qrupunun həmsədrliyi) müraciət edəcək. sülh danışıqları", - deyə Ermənistan XİN nümayəndəsi Vahan Hunanyan bildirib. Onun sözlərinə görə, məsələ üzərində hazırda iş aparılır.

## Daha 225 nəfər koronavirusa yoluxub

### 14 nəfər vəfat edib, 583 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 225 yeni yoluxma faktı qeydə alınıb, 583 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 14 nəfər vəfat edib.

*Azərbaycanda indiyədək ümumilikdə 790 378 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 778 543 nəfər müalicə olunaraq sağalıb, 9 589 nəfər vəfat edib, aktiv xəstə sayı 2 246 nəfərdir.*



## Təxribatlara birdəfəlik son qoyulmalıdır

Akif Nağı: "Qarabağdakı erməni quldurlarının hərəkətləri ilə bağlı kiməsə şikayətlənmək, xəbərdarlıq etmək mənasızdır, çünki effekt vermir"

(səh.5)

## "Əfv martda yox, mayda ola bilər"

Novella Cəfəroğlu: "İndi bütün dünyanın başı Rusiya-Ukrayna məsələsinə qarışıb"



(səh.4)

# Prezident Rüstəm İbrahimbəyovun vəfatı ilə bağlı nekroloq imzalayıb



**Prezident İlham Əliyev Rüstəm İbrahimbəyovun vəfatı ilə bağlı nekroloq imzalayıb.**

Nekroloqda deyilir:

"Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Müasir Azərbaycan ədəbiyyatının və kino sənətinin görkəmli nümayəndəsi, tanınmış nasir, dramaturq, ssenarist və rejissor, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Dövlət mükafatları laureatı, Əməkdar incəsənət xadimi, Xalq yazıçısı Rüstəm Məmmədibrahim oğlu İbrahimbəyov 2022-ci il martın 10-da ömrünün 84-cü ilində vəfat edib.

Rüstəm İbrahimbəyov 1939-cu il fevralın 5-də Bakı şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra o, 1956-1962-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunda ali təhsil alıb, əmək fəaliyyətinə 1962-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasında başlayıb.

Gənc yaşlarından ədəbiyyat və kino sənəti ilə yaxından maraqlanan Rüstəm İbrahimbəyov Moskvada 1967-ci ildə ali ssenarist kursunu, 1974-cü ildə ali rejissorluq kursunu bitirib.

Rüstəm İbrahimbəyov müasir Azərbaycan ədəbiyyatının və kinematoqrafiyasının görkəmli simalarındandır. O, çoxcəhətli fəaliyyəti ilə ölkəmizin hüdudlarından kənarda da tanınıb. Nəsrimizin yeni mərhələyə qədəm qoymasının fəal iştirakçısı olan Rüstəm İbrahimbəyov öz səmərəli yaradıcılığı ilə bədii-estetik fikrin zənginləşməsində mühüm rol oynayıb, yarım əsrdən artıq müddət ərzində ədəbi-mədəni mühitin inkişafına töhfələr verib. Sənətkarın sosial-mənəvi problemləri, dramatik konfliktləri və müasirlərimizin daxili aləmini həyat həqiqətləri əsasında ustalıqla əks etdirən povestləri və hekayələri, pyesləri və ssenariləri ədəbiyyatımızın və milli kino sənətinin məzmunca yeniləşməsində əhəmiyyətli rol oynayıb. Onun əsərləri əsasında 40-dan çox bədii və televiziya filmləri çəkilib. Mühüm sosial həqiqətlərdən söz açan, rəngarəng və dolğun obrazlarla zəngin bu əsərlər özünəməxsus dəst-xətti ilə seçilən sənətkara böyük oxucu və tamaşaçı auditoriyasının rəğbətini qazandırıb.

Rüstəm İbrahimbəyovun ssenarist və rejissor olaraq kinematoqrafiyanın inkişafında da təqdirəlayiq xidmətləri vardır. Yazıçının ssenariləri əsasında çəkilən "Bir cənub şəhərində", "Səhranın bəyaz günəşi", "İstintaq", "Ad günü" və bir çox digər filmlər geniş şöhrət tapmış, yüksək mükafatlarla təltif edilib. Onun həmmüəllif ssenaristi olduğu "Urqa" filmi 1991-ci ildə Venesiya Beynəlxalq Kinofestivalının ali mükafatına, "Günəşdən usanmışlar" filmi isə 1994-cü ildə Kann Beynəlxalq Kinofestivalının ali mükafatına və 1995-ci ildə Amerika Kino Akademiyasının "Oskar" mükafatına layiq görülüb.

Rüstəm İbrahimbəyov bədii yaradıcılıqla yanaşı, eyni zamanda ictimai fəaliyyət göstərib. O, 1967-1981-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin katibi, 1981-1985-ci illərdə birinci katibi, 1986-1991-ci illərdə SSRİ Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin katibi, 1990-cı ildən ömrünün sonunadək Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri olub, 1989-cu ildə SSRİ Ali Sovetinin deputatı seçilib.

Rüstəm İbrahimbəyovun xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib. O, 1976-cı ildə "Əməkdar incəsənət xadimi", 1998-ci ildə "Xalq yazıçısı" fəxri adlarını alıb, Azərbaycan ədəbiyyatının və kino sənətinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının ali dövlət təltifi olan "Şöhrət" ordeninə layiq görülüb.

*Görkəmli yazıçı və kino xadimi Rüstəm İbrahimbəyovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaq.*

**Allah rəhmət eləsin!**

İlham Əliyev
Mehriban Əliyeva
Əli Əsədov
Sahibə Qafarova
Samir Nuriyev
Eldar Əzizov
Fərəh Əliyeva
Anar Kərimov
Anar Rzayev
Şəfiqə Məmmədova
Oqtay Mirqasımov
Ramiz Fətəliyev
Rasim Balayev
Hacı İsmayılov".



# Prezident İlham Əliyev İbrahim Rəisiyə təbrik ünvanlayıb

"Azərbaycan ilə İran arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük perspektivlər var"

**Dini və mədəni köklərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsi qarşılıqlı hörmət və mehriban qonşuluğa əsaslanan Azərbaycan-İran münasibətlərinin əsas təməlini təşkil edir. Dostluq əlaqələrimizin bugünkü yüksək səviyyəsi otuz illik dövrdə ölkələrimizin birgə fəaliyyətinin nəticəsidir.**

Bu fikirlər Prezident İlham Əliyevin Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Prezident Seyid İbrahim Rəisiyə təbrikində yer alıb.

Dövlətimizin başçısı qeyd edib ki, bu illər ərzində çoxsaylı qarşılıqlı səfərlər, imzalanan sənədlər, əldə edilən razılaşmalar və həyata keçirilən birgə layihələr siyasi, iqtisadi, neqliyyat, enerji, mədəni və digər sahələrdə əməkdaşlığımızın dinamik inkişafında mühüm rol oynayıb.

**Təbrikdə daha sonra deyilir:** "Mən Azərbaycan ilə İran arasındakı müntəzəm siyasi dialoqu və bir sıra sahələrdəki işbirliyimizi yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu gün qarşılıqlı faydalı əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün böyük perspektivlər vardır. Şübhəsiz, tarixi, əzəli torpaqlarımızın işğaldan azad olunması nəticəsində Azərbaycan-İran dövlət sərhədinin bərpası müxtəlif sahələrdəki mövcud potensialdan tam şəkildə yararlanmağa, nəqliyyat-kommunikasiya dəhlizlərinin gerçəkləşdirilməsində birgə iştiraka əlverişli şərait yaratmışdır. Bu baxımdan Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı yenidənqurma və bərpa işləri aparılır. Biz ölkənizi təmsil edən şirkətlərin də yaxın gələcəkdə bu prosesdə iştirakını görməkdən məmnun olardıq".

*Prezident İlham Əliyev məktubunda xalqlarımızın mənafelərinə və ölkələrimizin maraqlarına xidmət edən Azərbaycan-İran münasibətləri bundan sonra da birgə səylərimizlə uğurla inkişaf edəcəyinə və möhkəmlənəcəyinə inamını ifadə edib.*



# Tələbələrin MEDİA-ya karyera səfəri...

**Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının təşkilatçılığı ilə həyata keçirilən "Tea Talks" proqramı çərçivəsində növbəti karyera səfəri Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinə olub.**

"Şərq " xəbər verir ki, görüş zamanı tələbələr Agentliyin rəhbəri və əməkdaşları ilə tanış olaraq qurumun fəaliyyəti və media sahəsində həyata keçirilən islahatlar haqqında məlumat əldə ediblər.

İnteraktiv formada keçirilən görüşdə tələbələrin Agentliyin layihələri və fəaliyyət istiqamətləri, eyni zamanda media ilə bağlı digər mövzular ilə əlaqədar sualları cavablandırılıb. Sonda Agentliyin İcraçı direktoru Əhməd İsmayılov tələbələrə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, fəal gənclərin qurumun müxtəlif layihələrində və təcrübə proqramlarında iştirakının nəzərə alınacağını deyib.

# Ukraynaya maliyyə dəstəyi ikiqat artırılacaq

Avropa İttifaqı liderləri növbəti dəfə qərar verəcək

**Bu gün Avropa İttifaqı liderləri blokun Ukrayna Silahlı Qüvvələrinə maliyyə dəstəyinin ikiqat artırılması ilə bağlı səsvermə keçirəcəklər.**

"Şərq" "CNN"ə istinadən xəbər verir ki, bu barədə Aİ-nin xarici siyasət rəhbəri Josep Borrell bildirib:



"Hamı başa düşür ki, biz Rusiyaya təzyiq göstərməyə davam etmək üçün Ukraynaya hərbi dəstəyimizi artırmalıyıq.

Maliyyə dəstəyi dərhal olacaq, indi pul sürətlə axır. Rəqəmlər 550 milyon dollardan daha çoxunu təşkil etməlidir". Nümayəndənin sözlərinə görə, Aİ liderlərini Avropa Sülh Mexanizmi sxemi ilə atılacaq addıma inandırmaq çətin olmayıb. Borrell bu gün Avropa İttifaqı Şurasının təklifi təsdiqləyəcəyinə əmin olduğunu bildirib. Fevralın 28-də Avropa İttifaqı Şurası ilk dəfə olaraq Ukrayna Silahlı Qüvvələrinin, o cümlədən öldürücü texnikanın maliyyələşdirilməsinə yardım etməyə razılaşıb.

**Cəmilə Əzim**

# Azərbaycan və İran arasında tarixi sənəd imzalandı



**Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının bu gün Bakıda keçirilən 15-ci iclası çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandum imzalanıb.**

Memorandumu Azərbaycan tərəfindən baş nazirin müavini, komissiyanın Azərbaycandan olan həmsədri Şahin Mustafayev, İran tərəfindən isə İranın yol və şəhərsalma naziri, komissiyanın iranlı həmsədri Rüstəm Qasemi imzalayıb.

Memorandumun məqsədi Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir yolu, avtomobil yolu əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün Araz çayı üzərində iki avtomobil (piyada keçidi ilə) və iki dəmir yolu olmaqla ümumilikdə dörd körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur.



# "Cəsur Ukrayna xalqı 16 gündür ki, vuruşur"

Antalya Forumu Rusiya-Ukrayna alovunu söndürmək istəyir

**"Dünya yeni xaosla qarşı-qarşıyadır". Bunu Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Antalya Diplomatiya Forumunun iclasında deyib. XİN rəhbəri bildirib ki, Avropa sabitlik axtarışındadır: "Müharibələrin qarşısı alınmır, müharibələr bitmək bilmir. Dünyada bərabərsizlik da da dərinləşir. Əməkdaşlığa ehtiyac var". Nazir qeyd edib ki, forum çərçivəsində Cənubi Qafqazdakı vəziyyətlə bərabər digər regional məsələlər müzakirə ediləcək.**

**"Ukraynanı haqlı mübarizəsində tək qoydular"**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, Ukraynanı haqlı mübarizəsində tək qoydular: "Böhranın münaqişəyə çevrilməsinə görə, təəssüflənirik. Bu, ən çox bizi məyus etdi. Qonşu ölkənin ərazisinin işğalına göz yuma bilmərik və bunu rədd edirik". Ərdoğan əlavə edib ki, Ukrayna da, Rusiya da Türkiyə üçün dost ölkədir: "Əgər 2014-cü ildə Krımın işğalına səs çıxarsaydılar, bu gün bu mənzərə ilə qarşılaşardıq?! Ukraynaya lazımi dəstəyi vermədilər. Ukraynanı haqlı mübarizəsində tək qoydular və biz indi bunun acı nəticələri ilə qarşı-qarşıyayıq".

**"NATO-ya qoşulmaq Ukraynanın seçimidir"**

**NATO-nun baş katibi Yens Stoltenberq bildirib ki, hərbi alyans Ukraynaya bəlli dəstək göstərir:** "Bunu illər əvvəl təlimlər və silah vermək yolu ilə də etmişik. Bu müharibə Ukrayna xalqının və hakimiyyətinin cəsarətini göstərdi, onlar Rusiyanın işğalını yavaşlatdı. Əlbəttə, danışıqlar çox önəmlidir, amma biz Rusiyanın Ukraynanın ərazisini işğal etdiyinə görə müəyyən addımlar atmalıyıq. Rusiya müstəqil ölkələrin seçimlərinə hörmət etməlidir". Stoltenberq qeyd edib ki, Ukraynanın NATO-ya qoşulmaq istəyi onun haqqı, seçimidir və alyans buna hörmət edir, alqışlayır.

**"Başa düşürük ki, hər müharibə danışıqlar masasında bitir"**

**Ukraynanın Baş naziri Denis Şmıqal deyib ki, Kiyev bütün dünyanın dəstəyini hiss edir:** "Tərəfdaşlarımız bizə müasir hərbi texnika verir, humanitar yardım edir. Biz demokratiya və müstəqillik uğrunda mübarizə aparırıq. Bizim həqiqətən də daha çox silaha ehtiyacımız var. Rusiya şəhərləri bombalayır. Ukraynalı qadın və uşaqların müdafiəyə ehtiyacı var. Sivil dünyanın dəstəyi olmadan bu mübarizəni aparmaq çox çətindir. Başa düşürük ki, hər müharibə sonda danışıqlar masasında bitir. Tərəfdaşlarımızdan da diplomatiya yolu ilə müharibəni dayandırmaq üçün dəstək istəyəcəyik". Baş nazir qeyd edib ki, Ukrayna beynəlxalq ictimaiyyətdən yardım alır, amma heç kim tərəfindən idarə olunmur: "Ukrayna Rusiya işğalına qarşı azadlıq müharibəsi aparır. Heç kim rus əsgərlərini gül-çiçəklə qarşılamadı. Cəsur Ukrayna xalqı vuruşur, 16 gündür mübarizə aparır".

**"Aİ və NATO üzv ölkələrin təhdid edilməsinə göz yummayacaq"**

**Latviya Respublikasının baş nazirinin müavini, Müdafiə naziri Artis Pabriks deyib ki, Avropa İttifaqı və NATO üzv ölkələrin təhdid edilməsinə göz yummayacaq:** "Rusiya beynəlxalq əlaqələrdə arqumentlərini intellektual müzakirələrə deyil, kobud gücə əsaslandırdı. Əgər bu cür cümlələr istifadə edirlərsə, deməli, onu edə bilərlər. Biz onları dayandıra bilmərik. Əgər onlar Latviyaya, Polşaya və yaxud ABŞ-a hücum etmək istəyirlərsə, bunu edə bilərlər. Amma onlar xatırlamalıdırlar ki, biz NATO müttəfiqiyik və Aİ üzvüyük. Kimsə bizi sadəcə olaraq təhdid edirsə, buna göz yuması deyilik". O, Aİ və NATO-nun Ukrayna xalqını dəstəkləməyə davam edəcəyini qeyd edib: "Bu, Rusiyanın Ukraynaya qarşı kobud aqressiyasıdır. Əlbəttə ki, biz beynəlxalq ictimaiyyətin məsuliyyətli bir üzvü olaraq Ukrayna xalqını dəstəkləyirik, böyük həmrəylik göstəririk. Bu qədər çox mülki itkilər görürük, doğum evi, xəstəxanalar bombalanır. Biz bilirik, sizin nazirinizdən də eşitdik ki, Ukraynada azərbaycanlılar da həlak olub. Bu dayanmalıdır. Biz Ukraynaya humanitar, eləcə də silah yardımı edirik. Düşünürəm ki, ehtiyaclı insanların dəstəklənməsi mənəvi borcdur".

**"Əfqanıstanda insanlara qarşı diskriminasiya yoxdur"**

**"Taliban"ın Xarici işlər naziri Əmir Xan Müttəqi bildirib ki, Əfqanıstanda heç kim üçün təhlükə yoxdur, biz əfqanların ölkələrində qalmalarını istəyirik. O, Əfqanıstan ərazisinin heç bir ölkəyə qarşı istifadə edilməyəcəyini deyib:** "Əfqanıstanda insanlara qarşı diskriminasiya yoxdur. Miqrasiyaya ehtiyac yoxdur, biz bütün əfqanların Əfqanıstana qayıtmasını və ölkəsinin inkişafına töhfə verməsini istəyirik. Əfqanıstanın yeni hökuməti Əfqanıstan ərazisinin başqa heç bir ölkəyə qarşı istifadə edilməyəcəyinə dair öhdəlik götürüb. Əfqanıstan hər kəs üçün investisiya imkanı təqdim edir. Əfqanıstanın mineralları var, əlaqələrin kəsişməsində yerləşir. Əfqanıstanda hamı üçün sərmayə yatırmağa fürsət var". Müttəqi vurğulayıb ki, böyük və kiçik olmasından asılı olmayaraq, xalqların diplomatiyaya ehtiyacı var, lakin böyük güclər diplomatiyadan kiçik xalqlara qarşı aqressiya üçün istifadə etməməlidirlər.

**İsmayıl**



# "Azərbaycan anti-terror əməliyyatlarına başlaya bilər"

Şair Ramaldanov: "Bunun üçün də ölkəmizin yetərli qədər gücü və imkanı var"

**Martın 10-u saat 19:45-dən martın 11-i saat 08:35-dək Azərbaycan Ordusunun mövqeləri müxtəlif istiqamətlərdən fasilələrlə atəşə məruz qalıb.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, ordumuzun Füzuli, Xocavənd, Ağdam və Xocalı, Kəlbəcər rayonları istiqamətlərində yerləşən mövqeləri Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən müxtəlif çaplı atıcı silahlardan istifadə edilməklə atəşə tutulub. Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

**Ehtiyatda olan polkovnik Şair Ramaldanov son günlər səngiməyən erməni təxribatı barədə "Şərq"ə danışıb:**

"Hazırda regionda sülhün bərqərar edilməsi, üçtərəfli bəyanatın yerinə yetirilməsi üçün işlər aparılır. Müəyyən bir qüvvələr var ki, onlar burda sülhün yaradılmasını yox, münaqişənin alovlanmasını istəyirlər. Bu regionda böyük dövlətlərin maraqları toqquşur. Həmin böyük dövlətlər maliyyələşdirdikləri erməni diasporaların vasitəsilə burda öz siyasətini həyata keçirmək istəyirlər.

Maliyyələşən bu diasporlarsa, vaxtaşırı həmin qurumlara hesabat verməlidirlər. Hesabatın tutarlı olması atəşkəsin pozulması və münaqişənin "tüstülənməsi" ilə mümkün olur. Hazırda Azərbaycan ərazisində müvəqqəti yerləşən rus sülhməramlıları da bunun üçün kifayət qədər şərait yaradıb".

Ş.Ramaldanov Azərbaycan-Rusiya-Ermənistan arasında imzalanan üçtərəfli Bəyanata diqqət çəkib:

"Bəyanatın dördüncü bəndi hələ də icra olunmayıb. Həmin bənddə Azərbaycan ərazisindəki erməni silahlılarının tərk-silah edilməsi, onların həmin ərazilərdən xaric edilməsi əks olunub. İndiki halda bu çox vacib məsələdir. Hazırda görürük ki, rus sülhməramlı qüvvələri dördüncü bəndi yerinə yetirmirlər. Bu qüvvələr tərki-silah edilmədiyi müddətdə isə Azərbaycan üçün təhlükə yaradacaqlar".

**Polkovnik diqqətə çatdırıb ki, Azərbaycan tərəfi təbii ki, onların tərksilah edilməsi ilə bağlı ciddi tədbirlər görəcək:**

"Digər tərəfdən rus sülhməramlılarına da bildirməliyik ki, onlar ya öz imkanları ilə dördüncü bəndin tələblərini yerinə yetirəcəklər, ya da Azərbaycan öz ərazisində anti-terror əməliyyatlarına başlayacaq. Bunun üçün də ölkəmizin yetərli qədər gücü və imkanı var".

**Günəş Mərd**

# *Co Bayden:* "Biz Rusiya iqtisadiyyatını çökdürdük"

"Putinlə hesab çəkmək üçün onu küncə sıxışdıracağıq"



"Bu atacağımız son addımlar deyil, Putinə daha çox zərbə vuracağıq"

**ABŞ prezidenti Co Bayden Ağ Evdə keçirdiyi mətbuat konfransında Rusiyaya qarşı tətbiq olunacaq yeni sanksiyaları açıqlayıb.**

Bayden bildirib ki, bunlar Rusiyanın iqtisadiyyatını çökdürəcək:

"Putinlə hesaba çəkmək üçün onu küncə sıxışdıracağıq. Beynəlxaq Valyuta Fondu və Mərkəzi Bankdan borc almasına mane olacağıq. Bu atacağımız son addımlar deyil. Spirt, almaz və dəniz məhsullarının idxalını dayandırırıq. Biz Putinə daha çox zərbə vuracağıq. Moskva birjası iki həftədir açılmır. Dollar 200 rubl olub. Çünki bilirlər ki, açılandan sonra müflisləşəcək. Beynəlxalq kredit reytinq agentlikləri Rusiyanı zibilliyə çeviriblər. Birjalar 200 rubla çevrilib. Biz Rusiya iqtisadiyyatını məhv etdik".

Digər tərəfdən, Bayden ABŞ-ın Ukraynada döyüşməyəcəyini vurğulayaraq, Rusiya ilə NATO arasında münaqişənin 3-cü Dünya Müharibəsinə səbəb ola biləcəyini deyib. Bununla belə, Bayden əlavə edib ki, ABŞ Ukrayna xalqına kömək edəcək:

"Biz Ukrayna xalqını dəstəkləyirik. Sanksiyalar Rusiya iqtisadiyyatını çökdürür. Son iki həftədə humanitar yardım 107 milyon dollara yüksəlib. Bu məsələ ilə bağlı iki mərhələli xərclər dünən axşam təsdiqlənib. Ukraynanın Rusiya işğalından müdafiəsi üçün silahı olmalıdır. Nə kömək lazımdırsa, edəcəyik".

**Çimnaz**

# Yenə reallıqları görməzdən gəldilər

Avropa Parlamentinin qəbul etdiyi qətnamə açıq-aşkar qərəzdir



**Avropa Parlamentində Azərbaycan əleyhinə "Qarabağda mədəni irsin məhv edilməsi haqqında" qətnamə qəbul edilib. Qətnaməyə 635 deputat lehinə, 2 deputat əleyhinə səs verib, 42 nəfər səs verməkdən çəkinib. Absurd sənəddə deyilib ki, "Qarabağdakı bütün erməni tarixi-mədəni irsinin nümunələrinin alban tarixi irsinin qalıqları kimi təqdim edilməsi və erməni abidələrinin adlarının dəyişdirilərək "Qafqaz-Alban" qoyulması kimi narrativin Azərbaycanda yayılması narahatlıq yaradır".**

Qətnaməyə görə, Azərbaycanın "erməni mədəni, tarixi və dini abidələrindən" saxta yazıların silinməsi məqsədilə işçi qrupun yaradılması yolverilməzdir. Həmçinin, Azərbaycandan UNESCO-nun Qarabağda araşdırmalar aparmağa şərait yaratmasına imkan verilməsi tələb olunur. Şərt qoyulur ki, qiymətləndirmə missiyası işə başlayanadək "erməni tarixi irsinə" əl vurulmasın və s. Bütün dünyaya bəllidir ki, Azərbaycan ərazilərinin 20 faizini işğalda saxladığı 28 il ərzində Ermənistan nəinki şəhər və kəndlərə, habelə multikultural dəyərlərə divan tutub. Maddi-mənəvi irsimizi məhv edərək, sadəcə, Azərbaycana qarşı yox, bütün ümumbəşəri dəyərlərə qarşı barbarlıq, vandallıq törədiblər. Azərbaycanın maddi-mənəvi və dini abidələrinin ermənilər tərəfindən dağıdılması, viran qoyulması, qarət edilməsi, mənimsənilməsi İrəvanın onillər boyu ölkəmizə və millətimizə qarşı apardığı işğalçılıq siyasətinin tərkib hissəsi olub. İşğaldan azad edilmiş ərazilərdə yüzlərlə tarixi abidə, onlarla muzey, məscid, mədəni irs nümunələri yerlə-yeksan olunub. Ermənilərin 28 il işğalda saxladığı ərazilərdə xalqımızın 403 tarixi-dini abidəsi vardı ki, onların 67-si məscid, 144-ü dini məkanlar, 192-i pirlər və ocaqlar idi. Həmısı ermənilər tərəfindən dağıdılıb. 67 məscidindən 64-ü viran qalıb. Bu mənada Avropa Parlamentinin qəbul etdiyi qətnamə ümumbəşəri prinsiplərə, beynəlxalq hüquqa, tarixi faktlara, reallığa və ən nəhayət, məntiqə zidd olmaqla yanaşı, aşkar neonasizm, müsəlman düşmənçiliyidir.

**Absurd qətnamə ilə bağlı "Şərq"ə danışan millət vəkili Elşad Mirbəşiroğlu vurğulayıb ki, Avropa Parlamentinin (AP) qəbul etdiyi qətnamə açıq-aşkar qərəzdir. Deputatın sözlərinə görə, AP növbəti dəfə Azərbaycana qarşı ədalətsiz mövqe sərgiləyib:** "Əslində Avropa Parlamentinin qərarı o qədər də təəccüb doğurmur. Çünki Avropa təsisatları hər zaman öz davranışlarında ikili standartlara söykəniblər. Onlar üçün ədalət mövcud deyil. Bu amili bütün Avropa təşkilatlarına aid etmək mümkündür. 30 il müddətində Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlayıb. Ermənilər işğal zamanı sadəcə azərbaycanlılara deyil, tarixi-mədəni abidələrimizə qarşı da terror aktları həyata keçiriblər, bütün tikililəri xarabalığa çeviriblər, daşı daş üstə qoymayıblar. Amma Qərb təsisatları 30 il ərzində erməni vandalizmi ilə bağlı heç bir qətnamə qəbul etməyib. Əksinə, ermənipərəst mövqe tutaraq işğala məruz qalmış Azərbaycan tərəfini ittiham ediblər. Avropa məkanı özünün bütün dəyərləri ilə dərin deqradasiyaya uğrayıb. Bu məqam beynəlxalq qurumların fəaliyyətində və yanaşmasında da özünü göstərir. Avropa Parlamenti Azərbaycanın multikultural dəyərlərini, ənənələrini bir dəfə də olsun təqdir etməyib. Bakıda erməni kilsəsinin bərpa olunması faktını alqışlamayıb, heç dilə gətirməyib".

Parlament üzvü vurğulayıb ki, Qarabağ Azərbaycan ərazisidir, orada heç vaxt erməni izi olmayıb: "Bölgədəki bütün tarixi-dini abidələr Azərbaycan xalqına aiddir. Ermənilər bizə məxsus məbədləri saxtalaşdıraraq, əslini dəyişdirərək "özününküləşdirməyə" çalışıb. Ermənilərin real işğal faktı, törətdikləri vəhşiliklər bir kənarda qalır, Avropa Parlamenti uydurma ittihamlarla Azərbaycana qarşı qətnamə qəbul edir. Bu, açıq-aydın təxribatdır. Avropa Parlamenti qətnamədə "Dağlıq Qarabağ" ifadəsinə yer verməklə Azərbaycanda separatizmə dəstək verdiyini bəyan edib. Avropa təsisatları daim xalqlar arasında münaqişələri dəstəkləyiblər".

**İsmayıl Qocayev**

# Savaşın qalibi olmayacaq

Rusiya üçün daha ağır dövr hələ irəlidədir



**"SSRİ həmişə sanksiyalar altında yaşayıb və uğurlara nail olub". Bunu Rusiya Prezidenti Vladimir Putin belaruslu həmkarı Lukaşenko ilə görüşündə deyib. Putin bildirib ki, Rusiyanın iqtisadiyyatına kütləvi təzyiq göstərilir: "Amma sanksiya tətbiq olunan sektorlarımız hələ də fəaliyyət göstərir".**

Rusiyanın Müdafiə Nazirliyi Kanadanın Rusiyaya qarşı sanksiyaları siyahısına daxil edilib. Kanada hökumətinin saytında Rusiyanın 32 şirkət və departamentinin siyahısı dərc edilib. Onların arasında Rusiyanın "İrkut" aviasiya korporasiyası və "Rusiya helikopterləri" holdinqinin də adı var.

Qeyd edək ki, Kanadanın Baş naziri Castin Trudo 5 rus və 32 rus hərbi təşkilatına qarşı sanksiya tətbiq etdiyini açıqlamışdı.

**Zelenski Rusiyaya meydan oxudu**

Ukrayna Prezidenti Vladimir Zelenski Rusiya əhalisinə video-müraciət edib. O deyib ki, mülki əhalinin üzərinə bomba atmağı əmr edən hər kəs cavab verəcək: "Zəngin həyatı sevirsiniz, elə deyilmi? Çiçəklənən ölkələri sevirsiniz? Artıq sizdə olmayacaq. Və bu yalnız başlanğıcdır. Siz müharibə cinayətlərində iştirak etdiyinizə görə mühakimə olunacaqsınız. 15-ci gündür ki, dövlətimizi müdafiə edirik. Biz dözdük. Ukrayna ordusu mühüm bölgələrdə hücumları dəf edir. Müdafiəyə qoşulan hər kəsin sayəsində biz kölə olmadıq və heç vaxt olmayacağıq!".

Ukraynada Rusiya dövlətinə və Rusiya vətəndaşlarına məxsus əmlaklar müsadirə olunacaq. Bununla bağlı Prezident Vladimir Zelenski müvafiq qanun imzalayıb. Sənədə əsasən, Rusiya Federasiyasının Ukraynaya və onun xalqına təmmiyyəsiz təcavüzkar müharibə apardığı nəzərə alınmaqla, müsadirə olunan əmlakın dəyəri hər hansı şəkildə ödənilməyəcək.

**Rusiyanın AŞ-dən çıxma proseduru başlayır**

Rusiya Dövlət Dumasının Beynəlxalq Məsələlər Komitəsinin sədri Leonid Slutski deyib ki, Rusiya tezliklə Avropa Şurasından çıxmaq üçün prosedurlara başlamalıdır: "Bu gün biz Rusiyanın Avropa Şurasından çıxması və çox yaxın gələcəkdə müvafiq daxili prosedurların həyata keçirilməsinə başlaması ilə bağlı kollegial qərar qəbul etməliyik".

**Zelenski Putinlə danışıqlara hazırdır, güzəşt olmayacaq!**

Ukrayna Prezident Ofisi rəhbərinin müavini İqor Jovkva məlumat yayıb ki, Prezident Vladimir Zelenski rusiyalı həmkarı Vladimir Putinlə beynəlxalq vasitəçilərin yardımı ilə birbaşa danışıqlara hazırdır: "Mənim prezidentim Putinlə birbaşa danışıqlara hazırdır. Lakin danışıqlarda Rusiyaya heç bir güzəştə getməyəcəyik".

**Jovkva: Ukrayna neytral statusa açıqdır...**

İqor Jovkva deyib ki, Ukrayna neytral statusa açıqdır, lakin ciddi təhlükəsizlik zəmanəti tələb edir. O bildirib ki, Vladimir Zelenski Putinlə birbaşa danışmaq istəyir: "Lakin danışıqlar zamanı Rusiyaya heç bir güzəşt olmayacaq. Ukrayna və Rusiya XİN rəhbərlərinin görüşünə gəlincə, heç bir irəliləyiş olmayıb. Görüş çox yaxşıdı, amma təəssüf ki, son qərarı verən Rusiya XİN-i deyil. Müharibənin dayandırılması, atəşkəsin yaradılması, qoşunların çıxarılması ilə bağlı yekun qərarı yalnız bir nəfər verir".

"Ona görə də Kreml istər-istəməz siyasi-diplomatik "pəncərə"ləri hər ehtimala qarşı açıq tutmaq məcburiyyətindədir"

**Zelenski: Putin bir nömrəli düşmənimdir!**

Ukrayna Prezidenti Vladimir Zelenski Putini özünə 1 nömrəli düşmən hesab etdiyini təsdiqləyib. O, bu barədə Almaniyanın "Die Zeit" qəzetinə müsahibəsində bildirib. Onun sözlərinə görə, Rusiyada reallığı dərk etməyin belə bir üsulu var - onlar dövlətə baxanda xalqı görmürlər: "Onlar dövlət başçısını görürlər, siyasətçiləri görürlər, iqtisadi maqnatları görürlər. Ümid edirlər ki, hamını satın ala bilərlər, ya da qorxuda bilərlər, amma mənim haqqımda bunun heç bir nəticə verməyəcəyini dəqiq bilirlər. Ona görə də belə bir təhlükə var. Hər şey çox sadədir". O, həmçinin qeyd edib ki, Kreml bütün ukraynalıların öz ölkəsini müdafiə edəcəyini və bunun vətən müharibəsinə çevriləcəyini gözləmirdi: "Sadəcə, Putinin adamları Ukraynanı tanımır. Amma Ukrayna belədir. Ukrayna səninlə olanda özünü təhlükəsiz hiss edirsən. Bu, Qərbdə çoxlarının da öyrənməli olduğu bir qaydadır".

**"Ukraynada müharibə uzanarsa..."**

**Politoloq Elçin Xalidbəyli deyib ki, Kreml Rusiya üçün hərbi-siyasi və sosial-iqtisadi intihar variantını seçib. Ekspertə görə, Rusiya tərəfi hələlik hər hansı anlaşmaya hazır deyil:** "Rusiya ordusu savaş meydanında Kremlin hədəflədiyi nəticələrdən çox uzaqdır. Rusiyanın hazırda əli çox zəif olduğundan Kreml siyasi-diplomatik masada özünü narahat hiss edir. Kremlin hər hansı anlaşmaya həvəs göstərəcəyi qətiyyən inandırıcı deyil. Rusiyanın siyasi diplomatik masada özünü rahat hiss etməsi üçün qarşı tərəfə öz anlaşma şərtlərini diktə etmək şansı qazanması vacibdir. Rusiya ordusunun Ukrayna savaşında uğur qazana bilmədiyini nəzərə aldıqdasa, hazırda bu, qətiyyən real görünmür. Ona görə də Kreml xarici işlər nazirlərinin görüşündən əvvəl anlaşma ehtimalının gündəmdən çıxarılmasının qayğısına qalmışdı.

Hər halda, Ukraynadan Krımın Rusiya ərazisi kimi tanınması, Donbassdakı separatçıların "müstəqilliyinin" qəbul edilməsi və s. kimi tələblər elə əvvəlcədən Kremlin anlaşma niyyətində olmadığını göstərirdi. Çünki rəsmi Kiyevin Ukraynanın ərazi bütövlüyünə qəsd xarakteri daşıyan belə tələbləri qəbul etməyəcəyini Kremldə anlamamış deyildilər. Amma Kreml siyasi-diplomatik "pəncərə"ləri də tam qapatmaqda qətiyyən maraqlı deyil. Çünki hazırda sülh danışıqları Ukraynaya lazım olduğu qədər də Rusiya üçün vacibdir. Kreml Rusiyanın Ukrayna savaşına, eləcə də onun beynəlxalq nəticələrinə uzun müddət davam gətirə bilməyəcəyini də nəzərə alır. Ona görə də Kreml istər-istəməz siyasi-diplomatik "pəncərə"ləri hər ehtimala qarşı açıq tutmaq məcburiyyətindədir. Ukraynada müharibə uzanarsa, savaşın sonrakı nəticələri Rusiyanı bu "bataqlığın" daha da dərinliyinə çəkə bilər. Bu halda, beynəlxalq sanksiyaların getdikcə sərtləşdirildiyini də nəzərə aldıqda, hansısa mərhələdə Rusiyanın həmin "savaş bataqlığı"ndan çıxma imkanlarının məhdudlaşa biləcəyi də qətiyyən istisna deyil.

Rusiyanın dünyadan təcrid olunma prosesinin tezliklə əhalinin müxtəlif sosial təbəqələrini də Kremlin savaş siyasətinə qarşı yönəldə biləcəyi istisna olmadığından daha ağır dövrün hələ irəlidə olduğunu ehtimal etmək olar".

**İsmayıl Qocayev**

# "Əfv martda yox, mayda ola bilər"

Novella Cəfəroğlu: "İndi bütün dünyanın başı Rusiya-Ukrayna məsələsinə qarışıb"



**Azərbaycan Prezidenti İlham Əliyev hər Novruz bayramı ərəfəsində məhkumların əfv olunması ilə bağlı sərəncam imzalayır. Ölkə əhalisi bu bayramda da əfvin olub-olmayacağı maraqlandırır.**

*Məsələ barədə "Şərq"ə danışan hüquq müdafiəçisi Novella Cəfəroğlu bildirib ki, Novruz bayramında əfvin olması gözlənilmir:*

"İnsanlar hər bayramda əfv sərəncamının imzalanacağını gözləyir. Biz də bu işlə məşğul olan insanlardan soruşduq.

Onlar hələ ki bu istiqamətdə işin aparılmadığını bildiriblər. İndi bütün dünyanın başı Rusiya-Ukrayna məsələsinə qarışıb.

Ona görə, əfv gözləntimiz yoxdur. Hələ bayrama bir qədər var. Bəlkə də sərəncam imzalanar. İndi olmasa da, mayın 10-da əfv sərəncamı ola bilər".

**Xanlar Əlibəy**



# 4 saatlıq görüş...

## Liderlər gündəmdə olan ən ciddi məsələləri müzakirə ediblər

**Prezident İlham Əliyev martın 10-da Ankarada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb. 4 saatlıq davam edən görüşdə Şuşa Bəyannaməsinin imzalanması və bu sənədin hər iki ölkənin parlamentində təsdiqlənməsi ilə Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin müttəfiqlik əsasında daha da inkişaf etdiyi vurğulanıb.**

Postmünaqişə dövründə Azərbaycan ilə Ermənistan arasında əlaqələrin normallaşdırılmasının perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin, Zəngəzur dəhlizinin açılmasının, onun region üçün yaratdığı perspektivlərin, bu xüsusda Qars-Naxçıvan dəmir yolu xəttinin çəkilməsinin əhəmiyyəti qeyd olunub. Söhbət zamanı 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda təsbit olunmuş bütün müddəaların Ermənistan tərəfindən icrasının vacibliyi qeyd edilib. Türkiyə və Ermənistan nümayəndə heyətlərinin təmasları mövzusunda müzakirə aparılıb. Görüşdə Azərbaycanla Türkiyə arasında enerji sahəsində əməkdaşlığa toxunulub. Bu xüsusda Cənub Qaz Dəhlizinin uğurla fəaliyyət göstərdiyi qeyd olundu, bu dəhliz vasitəsilə qardaş ölkəyə və Türkiyə ərazisindən keçərək Avropaya qaz təchizatının artırılması imkanları müzakirə olunub. Eyni zamanda İğdır-Naxçıvan qaz xəttinin çəkilməsi və bununla bağlı Azərbaycanın dövlət büdcəsində investisiyanın nəzərdə tutulduğu vurğulanıb. Söhbət əsnasında iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb. Liderlər arasında hərbi, hərbi texniki, o cümlədən hərbi təlim və tədris sahələrində əməkdaşlığın uğurla davam etdirildiyi bildirildi, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu. Görüşdə Ukraynadakı hadisələrlə bağlı da fikir mübadiləsi aparılıb.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında dövlət başçısı İlham Əliyevlə Türkiyə lideri Ərdoğanın 4 saat davam edən görüşünün üç ana gündəmi olub. Ekspert vurğulayıb ki, liderlərin əsas gündəmi - Cənubi Qafqazda postmünaqişə dövrü, Avropa bazarına qaz ixracının artırılması və Ukrayna müharibəsi idi:** "Rusiyanın Ukraynaya hücumundan sonra Cənubi Qafqazda, eləcə də postmünaqişə dövrünə dair razılaşmaların icrasında qeyri-müəyyənlik var. Bu vəziyyətdə Bakı və Ankara razılaşmaların, 10 noyabr bəyanatının bütün bəndlərinin icrası və Zəngəzur dəhlizinin açılmasının həyata keçirilməsində nələrin edilməsini, eləcə də yarana biləcək risklərə qarşı hansı addımların atılmasını müzakirə edir. İstisna deyil ki, Qarabağda atılacaq addımlarla bağlı da qərarlar verilib. Rusiyanın enerji resurslarına qarşı sanksiyalar Avropa bazarında qaz tələbatını artırır. Azərbaycan qazı bu tələbatı tam ödəməsə belə, Cənub Qaz Dəhlizi vasitəsilə təchizat həcminin artırılması iki ölkənin Avropa bazarında mövqelərini möhkəmləndirə bilər. Əsas gündəm mövzularından biri də Ukraynadır. Rusiya nə işğal hücumundan, nə də tələblərdən imtina edir. Lakin Türkiyə təmasların davam etdirilməsində israrlıdır və Ankara ilə yanaşı Bakı da bu prosesə dəstək verə bilər. Ümumilikdə, Əliyevin Türkiyə səfəri iki liderin həm Cənubi Qafqaz, həm də Ukrayna üzərindən davam edən geosiyasi qarşıdurmada Bakı və Ankaranın izləyəcəyi siyasəti müəyyənləşdirmək, "saatları yoxlamaq" məqsədi daşıyır".

> "İstisna deyil ki, Qarabağda atılacaq addımlarla bağlı da qərarlar verilib"

**İsmayıl Qocayev**

# Avropa İttifaqının qapıları illərdir döyülür

## Moldova, Ukrayna, Gürcüstan tezliklə Avropa ailəsinə üzv qəbul olunmayacaq



**Avropa İttifaqı Şurası Avropa Komissiyasına Ukrayna, Gürcüstan və Moldovanın Birliyə üzvlüklə bağlı müraciətlərinin qiymətləndirilməsini təqdim etməyi tapşırıb.**

Bu barədə Avropa İttifaqının dövlət və hökumət başçılarının Versalda keçirilən qeyri-rəsmi sammitinin yekunları üzrə qəbul edilmiş bəyanatda qeyd olunub. Avropa İttifaqının dövlət və hökumət başçıları Rusiyanın bu ölkədəki hərbi əməliyyatını dayandırdıqdan sonra Ukraynanın bərpasına yardım etməyə hazır olduqlarını bəyan ediblər: "İttifaq üzv olan ölkələr koordinasiyalı şəkildə siyasi, maliyyə, humanitar yardım göstərməyə davam edəcək. Biz Rusiyanın hücumu başa çatdıqdan sonra demokratik Ukraynanın bərpasına kömək etməkdə qərarlıyıq". Fransa prezidenti Emmanuel Makron da bəyan edib ki, Ukraynanın hazırda Avropa Birliyinə üzvlük prosedurunun başladılması qeyri-mümkündür: "Bu dövrdə Ukrayna və ukraynalılara güclü siqnal göndərmək vacibdir. Lakin həm də ehtiyatlı olmalıyıq. Bu gün müharibənin getdiyi ölkədə prosedurları başlada bilərikmi? Düşünmürəm". Moldovanın Xarici işlər naziri Niku Popesku isə bildirib ki, Aİ-yə üzvlük bir gecədə, hətta bir neçə ay ərzində baş vermir: "Biz hökumət olaraq Moldovanın nə vaxtsa Aİ-yə üzv olmaq imkanını və etibarını gücləndirmək üçün əlimizdən gələni etməyə davam edirik. Başa düşürük ki, Moldovanın gələcəyi üçün edə biləcəyimiz ən vacib şey əslində islahatlar aparmaqdır". Popeskunun sözlərinə görə, Moldovanın Aİ ambisiyasının onun neytrallığına heç bir təsiri olmayacaq.

> "Müharibədən sonra Avropada yeni təhlükəsizlik nizamı ortaya çıxacaq"

**Milli Cəbhə Partiyasının sədr müavini Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, Rusiya-Ukrayna müharibəsi dünyadakı geopolitik böhranı üzə çıxartdı. Analitik deyib ki, müharibədən sonra Avropada yeni təhlükəsizlik nizamı meydana çıxacaq:** "Avropa İttifaqı 10 ilə yaxındır ki, səhv strategiya həyata keçirir. Xüsusən, indiyə kimi Moldova və Ukraynanın Aİ-yə üzv qəbul olunmaması olduqca yanlış addım idi. 2008-ci ildə Gürcüstan-Rusiya müharibəsində də Avropa İttifaqı doğru yanaşma sərgiləmədi. Rusiyanın Ukrayna ərazisinə girməsi bütövlükdə Avropa məkanını ciddi təhlükə altında qoyur, təhdid yaradır. Məhz müharibə başlayandan sonra Ukrayna, Gürcüstan və Moldovanın Aİ-yə üzvlüklə bağlı müraciətinin qəbul olunması Rusiyaya qarşı təzyiq və çəkindirici mahiyyət daşıyır. Hər üç ölkə Rusiyanın işğalına, təcavüzünə məruz qalıb. Adıçəkilən dövlətlərin yaxın müddətdə Aİ-yə qəbul ediləcəyi gözlənilmir. Birliyin praqmatik davranmadığını da nəzərə alsaq, bu prosesin xeyli yubanacağı ehtimalı böyükdür. Türkiyə 50 ildən artıqdır ki, Avropa İttifaqının "qapısını döyür", amma hələ də qəbul etməyi düşünmürlər".

**İsmayıl**



# "Rusiya iqtisadiyyatı çökür"

## Sabir Məmmədli: "Kreml rəhbərliyi Çin vasitəsilə iqtisadi əlaqələri gücləndirmək, balans yaratmaq istəyir"



**Rusiya Ukrayna müharibəsi dünyaya təsirsiz ötüşmür. Qərb ölkələri Rusiyadan neft və qazın alışını azaltmaq və tamamilə durdurmaq planlarını hazırlayırlar. Ötən gün Rusiyanın şah damarına zərbə endirilib. Amerika Birləşmiş Ştatları (ABŞ) bu ölkədən neft və qaz ixracını dayandırıb.**

Bir çox şirkət müxtəlif kateqoriyalar üzrə Rusiyaya qarşı sanksiyalar tətbiq etməyə başlayıb. "Intel", AMD, "Nvidia" və "Apple" kimi çip və kompüter istehsalçıları Rusiyaya məhsul göndərməyi dayandırıblar. Prezident V.Putin birjalarda dəyərini itirən rublu xilas etməyə çalışır.

Deməli olar, bütün sahələrə qoyulan sanksiyalar Rusiya iqtisadiyyatını ciddi şəkildə tormozladır.

**Mövcud durumu "Şərq"ə şərh edən BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli bildirib ki, gündən-günə vəziyyət ağırlaşır:**

"Böyük Britaniyanın Baş naziri Boris Consonun, Xarici işlər naziri Liz Trassın qeyd etdiyi kimi Qərb ölkələrinin əsas məqsədi Rusiya iqtisadiyyatını dağıtmaqdır. Günah elə Rusiyadadır. Çünki o, diplomatik müstəvidən əl çəkib, Ukraynaya qarşı birbaşa təcavüz aktı həyata keçirir. Vəziyyətə görə Ukraynanı, NATO-nu günahlandırma ehtimalı var. Lakin beynəlxalq hüquq normaları ilə yanaşsaq, ilkin təcavüz aktını Rusiya edib, bu baxımdan da Qərb dövlətlərinin addımları gözləniləndi. Bir müddət əvvəl Avropa ölkələri, ABŞ rəhbərliyi Rusiyaya dəfələrlə mesaj vermişdi. Kremlin aqressivliyinin cavabsız qalmayacağını deyirdilər. İstənilən halda Rusiya iqtisadiyyatı çöküş vəziyyətinə düşəcək, artıq proses başlayıb".

**Ekspertin sözlərinə görə, bu, hər bir vətəndaşa təsir edən amildir:**

"Rəsmi Moskva rəhbərliyi belə çıxılmaz vəziyyətdə daha da lüzumsuz, hesablanmamış addımlara əl atır. Xarici şirkətləri milliləşdirmək məqsədi güdür. Üstəlik, əhaliyə bank hesablarından vəsait çıxarmağa icazə vermirlər. Xarici valyutadan pul köçürülməsinə limit qoyublar, bəzilərini dayandırıblar. Rusiya Bankının xaricdə olan vəsaitlərinin böyük bir hissəsinə sanksiya tətbiq edilib. Rusiyanın maliyyə sisteminə yüksək məbləğdə zərbə endirib. Neftlə dolu 6 tanker Rusiyaya geri qaytarılıb, alıcılar almırlar. Yaxın 2-3 həftə ərzində Rusiya iqtisadiyyatının çöküşü ilə nəticələnəcək. Kreml rəhbərliyi Çin vasitəsilə iqtisadi əlaqələri gücləndirmək, balans yaratmaq istəyir. Ərəb ölkələri, İranla neftlə bağlı danışıqlar aparır. Amma Çin də Rusiyanın fitvasına getmək fikrində deyil. Çin ilə Avropa İttifaqı rəhbərliyi artıq bir sıra məsələlərdə razılığa gəlirlər. Rusiyanın Çinə bel bağlaması da bir nəticə verməyəcək".

**Aygün Tahir**

# Haqlarını alıb, icazə verirlər

## Qanunsuz tikililərdən bütün icra başçılarının xəbəri var

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən qanunsuz tikililər məsələsinə də toxundu. Prezident qeyd etdi ki, son vaxtlar bu məsələyə ciddi nəzarət var, dövlət tərəfindən bütün bu məsələlər tənzimlənir və icazəsiz, qanunsuz tikililərin sayı xeyli azalıb:**

"Amma hələ də belə hallar var və mən bütün qurumları, dövlət qurumlarını və sahibkarları xəbərdar etmək istəyirəm ki, buna yol verilməyəcək. Xüsusilə sahibkarlara müraciət edirəm, qazanc dalınca getmək o deməkdir ki, biz unikal şəhərimizi eybəcər binalarla korlayaq. Biz buna imkan verməyəcəyik, qanunsuz tikililərə son qoyulmalıdır. Bu məsələyə nəzarət edən bütün orqanlar bu işlərə çox ciddi yanaşmalıdır - Bakı Şəhər İcra Hakimiyyəti, Bakı şəhərində yerləşən rayonların icra başçıları. Əminəm ki, bundan sonra Bakı vahid memarlıq konsepsiya əsasında inkişaf edəcək".



> "Eldar Əzizovun müşavirəsi gözdən pərdə asmaq üçündür. Sabah hesabata daxil edilsin ki, filan icra hakimiyyəti cəzalanıb, töhmət verilib və sair"

Prezidentin növbəti xəbərdarlığından sonra Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov paytaxt rayonlarının icra hakimiyyəti başçıları və müvafiq təsərrüfat strukturları rəhbərlərinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi və Fövqəladə Hallar Nazirliyinin nümayəndələrinin iştirakı ilə müşavirə keçirib. BŞİH-nin Mətbuat Xidmətinin məlumatına görə, müşavirədə çıxış edən Eldar Əzizov Prezident İlham Əliyevin çıxışı zamanı Bakı şəhərində qanunsuz tikintilərlə bağlı tutduğu iradlar və bu neqativ halların qarşısının alınması ilə bağlı verdiyi tapşırıqlar barədə məlumat verib. Bildirilib ki, son vaxtlarda rayon icra hakimiyyəti başçılarına qanunsuz tikililərlə mübarizə tədbirlərinin gücləndirilməsi ilə bağlı dəfələrlə tapşırıqlar verilib, buna baxmayaraq rayon icra hakimiyyətləri başçıları, onların aparatının məsul əməkdaşları bu vacib məsələni daimi nəzarətdə saxlamayıb və nəticədə ərazidə qanunsuz tikintilərin artmasına şərait yaranıb. Müşavirədə paytaxt ərazisində aparılan monitorinq zamanı aşkar edilən qanunsuz tikililər barədə video-film nümayiş etdirilib. Toplantıda paytaxtın hər bir Rayon İcra Hakimiyyəti başçısının rayon ərazisindəki bütün məsələlərlə bağlı şəxsi məsuliyyət daşıdıqları vurğulanıb və bildirilib ki, RİH-nin qanunsuz tikintilərə qarşı Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin Şəhərsalma Nəzarəti şöbəsi ilə birgə fəal əməkdaşlıq etmədiklər. Müşavirədə ərazisində daha çox qanunsuz hallara yol verilmiş bəzi icra hakimiyyəti başçılarına ciddi xəbərdarlıq edilib, qanunsuz tikinti hallarının qarşısının alınması ilə bağlı təcili və təxirəsalınmaz tədbirlərin görülərək bu barədə 2 ay müddətində hesabat verilməsi tapşırılıb.

Görəsən, bu, BŞİH başçısının keçirdiyi neçənci müşavirə, neçənci xəbərdarlıqdır? Və bundan sonra belə müşavirələr və xəbərdarlıqlar hələ nə qədər olacaq? Əsaslı nəticə əldə ediləcəyi o qədər də inandırıcı görünmür. Çünki paytaxtdakı qanunsuz, həm də eybəcər, ümumi memarlıq ansamblına zərər verən tikililərin başında məhz icra hakimiyyətləri dayanır.

**Problemlə bağlı fikirlərini "Şərq"lə bölüşən Vətəndaş Cəmiyyətinə Yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı qeyd etdi ki, icra hakimiyyətləri özünü doğrultmayan struktura çevrilib və onlar barədə mənfi imic formalaşıb:**

- Korrupsiya, rüşvət halları, həbslər... bütün bunlar icra hakimiyyəti strukturu haqqında cəmiyyətdə formalaşmış mənfi fikirləri daha da gücləndirir. İcra hakimiyyətləri özünü doğrultmayan bir strukturdur. Hər bir rayon icra hakimiyyəti rəsmiləri - böyükdən kiçiyə, nəinki ərazidə aparılan hansısa tikintidən, hətta adi bir vətəndaşın mənzilində apardığı təmirdən də xəbərdardır. Yeni idarəetmə arealına daxil olan ərazilərə nəzarət bu dərəcədə əhatəlidir. Ona görə də kimsə "mənim bundan xəbərim olmayıb", deyirsə, konkret yalan danışır. Haqlarını alırlar, tikintiyə icazə verirlər. Açıq deyirlər ki, nə qədər fürsət var, tez olun tikin, hesabat soruşulanda deyəcəyik, əvvəlki illərdə imzalanmış sərəncamlara uyğun tikilir. Əlbəttə, hamısının qanunsuz tikililərdən xəbəri var, özləri icazə verirlər. Bu, aydın məsələdir. Amma məni bir vətəndaş olaraq narahat edən həm də budur ki, niyə hər məsələyə Prezident irad bildirəndən, xəbərdaqlıq edəndən sonra məmurlar "canlanır"? Gərək hər problemi Prezident qaldırsın, irad bildirsin, sonra məmurlar işə başlasın?! Vəzifəyə təyin edilən şəxsin konkret vəzifəsi, daşıdığı məsuliyyət var. Buna əməl etməlidirlər. Bu müşavirələr də gözdən pərdə asmaq üçündür. Sabah hesabata daxil edilsin ki, filan icra hakimiyyəti cəzalanıb, töhmət verilib və sair.

**M.Zülfüqarlı problemin əsaslı həlli üçün bələdiyyələrin statusunun artırılmasını vacib sayır:**

- Türkiyədəki kimi bizdə də yerlərdə ikili hakimiyyət - həm bələdiyyə, həm də icra hakimiyyəti olsa, problem həllini tapar. Bələdiyyələrin statusunun artırılmasına böyük ehtiyac var. Əgər əhalinin seçdiyi bələdiyyələrin səlahiyyətləri artırılsa, icra hakimiyyətləri istədiklərini edə bilməyəcək, bələdiyyə ilə hesablaşmalı olacaqlar. Bələdiyyələr söz sahibi olacaq. Amma bir şərtlə ki, bələdiyyələrə düzgün, şəffaf seçkilər keçirilsin. Bələdiyyə sədri həqiqətən yerli əhalinin seçdiyi şəxs olarsa, dövlətin və vətəndaşın mövqeyindən çıxış edəcək, qanunsuzluğa yol verməyəcək, əks halda növbəti seçkidə seçilməyəcəyini gözə alacaq. Bununla qanunsuz tikililərin qarşısını da almaq olar.

**Məlahət Rzayeva**

# Fəlakətin miqyası çox böyük olar

## Rusiya Çernobıl AES-lə bağlı təhlükəli addım atmağa cürət etməz



**"Çernobıl AES-də vəziyyət təhlükəlidir. Stansiya enerjisiz qalıb. İndi orada nə baş verdiyini kimsə bilmir".**

Bu fikirləri Ukrayna Prezident Ofisi rəhbərinin müşaviri Mixaylo Podolyak səsləndirib.

"Bu, bütün Avropa üçün təhlükədir. Həmçinin Rusiyanın özünə də təhdid yaradır. Beynəlxalq ictimaiyyət Rusiyaya təzyiqləri artırmalıdır", - deyə o bildirib.

M.Podolyak vurğulayıb ki, rusların enerji bloklarını hədəf almaları təsadüfi deyil: "Çünki onlar orta əsrlərin döyüşlərini aparırlar".

Rus qoşunları fevralın 24-də Çernobıl Atom Elektrik Stansiyasının bütün obyektlərinə nəzarəti ələ keçirib.

Xatırladaq ki, 1986-cı il 26 aprel tarixində Ukrayna SSRİ-nin şimalındakı Pripyat şəhəri yaxınlığında ?ernob?l Atom Elektrik Stansiyas?n?n 4 saylı nüvə reaktorunda qəza baş verib. Hadisə nəticəsində 10 minlərlə insan həyatını itirib və yaralanıb. Bu gün də Çernobıl qismən tərk edilmiş şəhər olaraq qalır. Bu, SSRİ-nin faciəsi idi. İndiki dövrdə oxşar hadisə yenidən təkrarlanarsa, günümüzdəki Rusiya heç də keçmiş SSRİ-dən az zərər görməyəcək.

*Bu reallığı dərk edən Moskvanın belə bir addım atması nə dərəcədə real görünür?*

**Bu barədə "Şərq"ə açıqlama verən politoloq Cümşüd Nuriyev bildirib ki, Rusiya əslində Ukraynadakı Atom Elektrik Stansiyasında çirkli nüvə silahının hazırlanması haqqında kəşfiyyat məlumatları əsasında bu stansiyanı ələ keçirdi:**

"Həqiqətən verilən məlumatın doğru olduğu məlum oldu. Çünki Qərb Ukraynanı qızışdırmışdı ki, sən nüvə dövləti ola bilərsən. Onların məqsədi Rusiya ilə qarşıdurmada Ukraynadan yararlanmaq idi. Rusiya da məsələni daha tez öyrəndiyinə görə bunun qarşısını aldı. SSRİ Çernobıl faciəsini yaşayıb. Rusiyanın bu senarini təkrarlaması ehtimalı sıfıra bərabərdir. Çünki onun ərazisində də AES-lər var. Eyni zamanda həmin stansiyaları xarici ölkələrdə, eləcə də Türkiyədə qurur. Buna görə də Rusiya imicinə xələl gəlməsini istəməz".

Kiyevin bu barədə narahatlığı və həyəcan siqnalı verməsi əbəs deyil. Ukrayna ərazisində rus ordusunun ələ keçirdiyi stansiyanın partlamasının nə dərəcədə böyük fəlakətlə nəticələnəcəyini təxmin etmək mümkündür.

"Zaporojiya atom elektrik stansiyası Avropada yerləşən ən böyük stansiyadır və Çernobıldakından 4 dəfə güclüdür. Əgər bu senari təkrarlanarsa, Rusiyanın, Belarusiyanın və Ukraynanın əhalisinin çoxu şüalanmaya məruz qalacaq və həlak olacaq. Rusiyanın buna yol verəcəyinə inanmıram".

**Sənan İsmayıl**



**Antalyada keçirilən sammitdə Rusiya Xarici işlər naziri Sergey Lavrovla Türkiyə XİN başçısı Mövlud Çavuşoğlu arasında gərginlik yaşanıb. M.Çavuşoğlu S.Lavrova dayanmalı olduğu xətti göstərib.**

Lavrov isə sonradan Türkiyə XİN başçısının özünün xətti keçib önə çıxdığına işarə vurub. Görüntülər qısa zamanda sosial şəbəkələrdə gündəm olub. Əlbəttə, bu

# Lavrovun Çavuşoğluna göstərdiyi cizginin mənası bilindi

## "Türkiyənin vasitəçiliyini qəbul etsə də, onun regional gücdən beynəlxalq gücə çevrilməsini qəbul edə bilmir"

məqam dünya mətbuatının manşetinə çevrildi. Bəzi siyasət nəhəngləri bunu siyasi dilə "tərcümə" edib, müxtəlif proqnozlar, rəylər veriblər.

**Politoloq Məhəmməd Əsədullazadə həmin görüntülərdən "Şərq"ə danışarkən bildirib ki, hazırda Türkiyənin regional beynəlxalq müstəvidə aktual bir ölkəyə çevrilməsi böyük dövlətləri narahat edir və onlar rəsmi Ankaraya qırmızı cizgini keçdiyinə dair mesajlar da verirlər:**

"Lavrovun Çavuşoğlu ilə görüşündə də bu hal müşahidə olundu. Rusiya Ukrayna məsələsində Türkiyənin vasitəçiliyini qəbul etsə də, onun regional gücdən beynəlxalq gücə çevrilməsini qəbul edə bilmir. Xüsusilə indi Qərblə Rusiya arasında yaşanan siyasi, hərbi böhranın fonunda Türkiyənin beynəlxalq nizamı qaydaya salmaq cəhdi rəsmi Moskvanı narahat edir".

*Politoloqun sözlərinə görə, Antalya Forumunu təşkil edən Türkiyənin beynəlxalq müzakirə platformasına çevrilməsi Rusiya tərəfindən gərginlik yaradır:*

"Lavrovun da Forumda Türkiyə XİN başçısına belə mesaj verməsi göstərir ki, Rusiya rəsmi Ankaranın Ukrayna məsələsində qırmızı cizgini keçdiyini düşünür".

**Günəş Mərd**



**Azadlıq Təşkilatının sədri Akif Nağı bildirib ki, Rusiyanın Ukraynada canlı qüvvəyə ehtiyacı var. QAT rəhbərinin sözlərinə görə, "sülhməramlı" missiyanı icra edən bir qrup hərbçinin Ukraynaya göndərilməsi ehtimalı istisna edilmir:** "Düzdür, bununla bağlı hansısa rəsmi açıqlama yoxdur. Amma təkzib də edilməyib. Əlbəttə, separatçıların davamlı təxribata əl atması, atəşkəsi pozması təsadüfi deyil. Buna görə bütün məsuliyyət birbaşa Ermənistan rəhbərliyinin üzərinə düşür. İrəvan hökuməti yaxasını kənara çəkə bilməz. Paşinyanın Qarabağdakı təxribatların məsuliyyətini üzərindən atması qondarma rejimin "müstəqil" subyekt kimi ortaya atılmasına xidmət edir. Separatçıların aktivləşməsi səbəbsiz deyil. Ermənistan mediası da əsassız xəbərlər yayır ki, guya, Azərbaycan Ordusunun cavab zərbələri nəticəsində ermənilərin texnikasına "ziyan dəyib, yaralanan olub" və s. Şübhəsiz, bunların hamısı uydurma məlumatlardır. Ordumuz düşmənə məxsus hədəfləri dəqiq zərbələrlə məhv edib. Separatçılar dünyada gedən proseslərdən öz xeyirlərinə yararlanmaq niyyəti güdürlər. Rusiyanın Ukraynanı işğala başlaması revanşistləri "ruhlandırıb". Qarabağdakı erməni quldurlarının hərəkətləri ilə bağlı kiməsə şikayətlənmək, xəbərdarlıq etmək mənasızdır, çünki effekt vermir. Ona görə də antiterror əməliyyatına başlamalı və məsələyə birdəfəlik son qoymalıyıq".

# Təxribatlara birdəfəlik son qoyulmalıdır

## Akif Nağı: "Qarabağdakı erməni quldurlarının hərəkətləri ilə bağlı kiməsə şikayətlənmək, xəbərdarlıq etmək mənasızdır, çünki effekt vermir"

**Ordumuzun Füzuli, Xocavənd, Ağdam və Xocalı rayonları istiqamətlərində yerləşən mövqeləri qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən atəşə tutulub. Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.**

Məlumat üçün bildirək ki, Rusiya sülhməramlılarının nəzarət etdiyi ərazilərdə yerləşmiş qanunsuz erməni silahlı dəstələri son günlər yenidən aktivləşiblər. Ekspertlərin fikrincə, Rusiyada və Ermənistanda müəyyən dairələrə bağlı olan separatçıların dünyada baş verən son proseslər, xüsusən Rusiya-Ukrayna müharibəsi fonunda fəallaşması təsadüfi sayıla bilməz. Bir sıra şərhçilər isə hesab edirlər ki, rus sülhməramlı kontingentinin bir hissəsinin Qarabağdan çıxması bölgədəki erməni silahlı birləşmələrinin təşvişə düşməsinə səbəb olub.

**Mütəmadi baş verən erməni təxribatı ilə bağlı fikirlərini "Şərq"lə bölüşən Qarabağ**

**İsmayıl**

# Ofissiz qalan təşkilatlar az deyil

## "Siyasi partiyalara olan diqqət QHT-lərə göstərilmir"





**"Jurnalist Ekspert Mərkəzi" ( JEM ) İctimai Birliyinin sədri, "Rupor.az" saytının baş redaktoru Ceyhun Musaoğlu feysbuk hesabında paylaşım edib.**

*"Şərq"in məlumatına görə, C.Musaoğlu qardaşının həyətinin bir küncündən verdiyi 15 kvadrat metrlik ərazidə JEM-ə ofis tikir:*

"Ustası var, fəhləsi özüməm. JEM-in fəaliyyətini gücləndirmək qərarı vermişik. İcarə ofislər bahadır, mən də balıq bürcündənəm. Mane ilə üzləşən kimi sivişib üzməyə yer axtarıram. İnşallah bu günə qədər ofisə yönəltdiyimiz xərclərə bundan sonra qənaət etmiş olacağıq, cüzi də olsa o məbləği cəmiyyətin inkişafına sərf etməyə cəhd göstərəcəyik. Hər kəsin həm yaşamaq, həm də işləmək üçün öz damı olmalıdır".

C.Musaoğlunun paylaşımı dövlət tərəfindən Qeyri Hökumət Təşkilatlarına (QHT) ofis verilməsi məsələsini yenidən gündəmə gətirib.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti siyasi partiyalara ofis sahəsi ayırmasına baxmayaraq QHT-lər niyə diqqətdən kənarda qalıb?

**Məsələ ilə bağlı "Şərq"ə açıqlama verən Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni 20 ildir, bu məsələylə məşğul olduqlarını bildirib:**

'Hökumət qanun çərçivəsində QHT-yə , vətəndaş cəmiyyətinin subyektlərinə , institutlarına müvafiq yer ayrılmasına diqqət göstərilməlidir. Qanunda da bu öz əksini tapıb. QHT yaranıb dövlət qeydiyyatına alınırsa, dövlət qurumları ona ofis verməyə borcludur. Siyasi partiyalara ofis verilməsi onlara da aiddir. Dövlət Əmlak Komitəsinə, İqtisadiyyat Nazirliyinə müraciət etmişdim. Sadəcə olaraq müraciətlərə baxılmır. Birmənalı olaraq siyasi partiyalara göstərilən qayğı QHT-lərə göstərilmir. Prezidentin sərəcamı ilə, vətəndaş cəmiyyətinə diqqət ilə QHT-lərə Dövlət Dəstəyi Agentliyi yarandı. Sərəncamda inzibati binanın 1 ay müddətində istifadəyə verilməsinin məsələsi vardı. 1 ildir yaradılmasına baxmayaraq, hələ də bina yoxdur, icarədədir".

**Aygün Tahir**

# Adi bir kağız parçasıdır

## Avropa Parlamentinin qətnaməsi Azərbaycan xalqının yüksək milli, mənəvi və mədəni dəyərlərinə kölgə sala bilməyəcək

**Milli Məclis Avropa Parlamentinə etiraz bəyanatı ünvanlayıb. "Şərq" xəbər verir ki, bu barədə parlamentin mətbuat xidməti məlumat yayıb. Bəyanatda deyilir:**



***Milli Məclis Avropa Parlamentinə etiraz bəyanatı ünvanlayıb***

"Martın 10-da Avropa Parlamenti Azərbaycana qarşı növbəti qərəzli qətnamə qəbul edib. Ermənistanın və Avropa Parlamentindəki erməni lobbisinin tamamilə yalan məlumatlarına əsaslanan, Azərbaycan torpaqlarının 30 illik işğalı dövründən irəli gələn reallıqları, o cümlədən bu torpaqlarda mədəni irsimizə qarşı törədilən vandallıq faktlarını təhrif edən, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini şübhə altına alan, regionda uzunmüddətli sülh və sabitliyin təmin olunması istiqamətindəki səylərini zədələyən bu qətnamə eyni zamanda özündə bir sıra təhlükəli məqamları ehtiva etməklə bəşəriyyətin dini, irqi ayrı-seçkiliyin və dözümsüzlüyün aradan qaldırılması səylərinə də kölgə salır. Beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi güdən bu qətnaməni birmənalı şəkildə "Avropa demokratiyasının növbəti qürubu" adlandırmaq olar. Avropa xalqlarının ayrı-ayrı nümayəndələrinin toplaşdığı Avropa Parlamentinin ümumbəşəri dəyərlərə etinasızlığı və laqeyd münasibəti ciddi suallar doğurur.

Avropa Parlamentinin bu qeyri-obyektiv qətnaməsini ətraflı şəkildə şərh etmək fikrindən uzaq olsaq da, bəzi məqamların xüsusi vurğulanması zəruridir.

İlk növbədə qeyd olunmalıdır ki, Avropa Parlamentinin qətnaməsi Ermənistanın 30 illik işğal dövrü ərzində Azərbaycanın mədəni irsinə qarşı törətdiyi vandalizmi tamamilə inkar edir. İşğal dövrü Ermənistanın müharibə cinayətləri və insanlıq əleyhinə cinayətləri ilə müşayiət olunub. Ermənistan qəsdən şəhər və kəndləri dağıtmaqla yanaşı, Azərbaycan xalqının bu ərazilərdəki bütün mədəni irsini məhv edib. Dağıntıların miqyasını təsəvvür etmək belə çətindir. Coxsaylı tarixi, mədəni və dini abidələr, arxeoloji qazıntı məkanları, kitabxanalar və muzeylər, muzey eksponatları, nadir əlyazmalar, məzarlıqlar sistemli şəkildə viran qoyulub və talanıb. Məscidlər yerlə-yeksan edilib, inək və donuz saxlanılan yerlərə çevrilərək, təhqir olunub. Yalnız islam dininə aid abidələrə qarşı vəhşilik edilməyib. Alban və xristian kilsələri də dağıdılıb, onların üzərində arxitektur dəyişikliklər aparılmaqla erməniləşdirilməsinə cəhd göstərilib. Ermənistan bütün bunları etməklə yalnız bir məqsəd güdürdü: Azərbaycan xalqının bu torpaqlardakı izinin tamamilə silinməsi.

Azərbaycanın çoxsaylı çağırışlarına baxmayaraq, Ermənistan işğal dövründə UNESCO və digər ixtisaslaşmış beynəlxalq qurumların mədəni irsin vəziyyətinin qiymətləndirilməsi üçün bu ərazilərə səfərlərinin qarşısını alıb. Beynəlxalq qurumların qətiyyətsizliyi Ermənistanı, əksinə, dağıntıların miqyasını daha da genişləndirməyə təşviq edib. Bütün bunlar isə Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn, o cümlədən 1954-cü il Haaqa Konvensiyasının və onun Protokollarının kobud şəkildə pozulmasıdır. Öz qətnaməsində UNESCO-ya dəfələrlə istinad edən, lakin qeyd olunan faktları inkar edən və Azərbaycanı UNESCO-nun missiyasının əngəlləməkdə ittiham edən Avropa Parlamentinin Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının nəticələri, mədəni irsinə qarşı törədilən vandallıqlara dair ötən illər ərzində bir dəfə də olsun məsələ qaldırmaması olduqca düşündürücüdür. Avropa Parlamentinin hazırkı qətnaməsi nəinki beynəlxalq humanitar hüququn prinsiplərinə, eyni zamanda mədəni və dini abidələrin dağıdılmasına qarşı Avropa İttifaqının özünün qəbul etdiyi prinsiplərə də ziddir.

Bir faktı da vurğulamaq lazımdır ki, cari ilin fevral ayının 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilmiş görüşün nəticəsi olaraq UNESCO missiyasının Azərbaycana və Ermənistana göndərilməsinə dair razılıq ifadə edib. Bu, Ermənistan ərazisində Azərbaycan xalqına məxsus mədəni irsin vəziyyətinin öyrənilməsi zərurətinin təsdiqidir. Avropa Parlamenti isə nədənsə bu məsələyə ümumiyyətlə toxunmur.

Avropa Parlamenti ermənilərə aid olduğunu iddia etdiyi mədəni abidələri qədim xristian irsinin və bəşəriyyətin ümumi irsinin bir hissəsi kimi təqdim edir. İşğal dövründə dağıdılmış və ciddi ziyan vurulmuş 67 məscidi, yerlə-yeksan edilmiş İslam mədəniyyəti abidələrini inkar edən düşüncə tərzi dini, irqi ayrı-seçkiliyi təşviq etməklə olduqca təhlükəli tendensiyalara rəvac verir. Ümumiyyətlə, qətnamədə Azərbaycanın mədəni irsi ifadəsinə heç bir yerdə rast gəlmək mümkün deyil.

Qətnamədə həmçinin Beynəlxalq Ədalət Məhkəməsinin 2021-ci ilin dekabr qərarının mahiyyəti təhrif edilərək, bütövlükdə Ermənistan tərəfindən Məhkəmə qarşısında qaldırılmış, lakin rədd edilmiş iddialara istinad edilir.

Ümumiyyətlə, Avropa Parlamentinin bu qətnaməsi Avropa İttifaqı rəhbərliyinin son dövrlərdə Cənubi Qafqazda sülh, sabitlik və təhlükəsizliyin təmin olunması istiqamətində nümayiş etdirdiyi xoşməramlı səylərə bütövlükdə ziddir.

Avropa Parlamenti artıq bir sıra faktları qəbul etməlidir.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın rəşadətli Ordusu 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğalına son qoyub və ərazi bütövlüyümüzü bərpa edib. İndi Azərbaycan postmünaqişə dövründə geniş bərpa-quruculuq mərhələsinə qədəm qoyub. İşğaldan azad olunmuş ərazilərdəki bütün dini, mədəni abidələrə, o cümlədən xristian irsinə aid abidələrə dəymiş ziyanın müəyyən edilməsi, faktlaşdırılması və onların bərpası üzrə praktiki addımlar atılır. Bu da təəccüblü deyil. Monoetnik Ermənistandan fərqli olaraq, Azərbaycan müxtəlif dinlərin, xalqların nümayəndələrinin əsrlər boyu sülh, ləyaqət, mehribanlıq şəraitində birgə yaşadığı multikultural və tolerant ölkədir. Azərbaycan ərazisində bütün dinlərin məbədləri, bütün mədəniyyət abidələri dövlət tərəfindən qorunur və bərpa olunur.

Avropa Parlamentinin bu qətnaməsi Azərbaycan xalqının yüksək milli, mənəvi və mədəni dəyərlərinə kölgə sala bilməyəcək adi bir kağız parçasıdır.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin qərəzli şəkildə yalan məlumatlar yaymaq cəhdini şiddətlə qınayır və regionda normallaşma prosesinə ziyan vuracaq təxribatlardan çəkinməyə çağırır".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması;**



# Amnistiya Aktının icrası başa çatıb

## 5730 nəfərin ölkədən çıxışına qoyulan qadağa götürülüb

**Azərbaycan müstəqillik qazandıqdan sonra ulu öndər Heydər Əliyevin həyata keçirdiyi inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyev ölkəmizi dünyanın ən dinamik inkişaf edən dövlətlərindən birinə və bölgədə söz sahibinə çevirib.**

Son 19 ildə dövlət başçısı tərəfindən həyata keçirilən proqramlar, reallaşan layihələr və islahatlar Azərbaycanın inkişafına, eləcə də ölkə vətəndaşlarının rifahının yüksəlməsinə, xalqın tələbatının ödənilməsinə öz töhfəsini verib. Tarixə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsində Azərbaycan Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr endirdi. Əlbəttə ki, dövlətimizin iqtisadi gücü, hərbi potensialımız, müasir dövrün ən yüksək standartlarına cavab verən Silahlı Qüvvələrin formalaşdırılması Ali Baş Komandanın rəhbərliyi ilə müharibənin qələbə ilə başa çatmasında həlledici rol oynadı. Azərbaycan Ordusunun dünyanın 50 ən güclü ordusu sırasında layiqli yer tutması da təsadüfi deyildi. Azərbaycan xalqı böyük zəfər tarixini əbədiləşdirdi. Vətən müharibəsində qazanılmış tarixi qələbənin birinci ildönümü ilə bağlı 8 Noyabr - Zəfər Günü münasibətilə Amnistiya elan edilməsi böyük bir töhfə oldu. Bu, humanist addım olaraq minlərlə insana böyük sevinc bəxş etdi. Ölkəmiz üçün mühüm əlamətdar günlərdə, bayramlar ərəfəsində amnistiyaların verilməsi çoxsaylı ailələrə sevinc bəxş edir.

Azərbaycanda bu humanist ənənənin əsasını isə ümummilli lider qoyub. Ulu Öndər hakimiyyətə gəldikdən sonra əfv və amnistiya təsisatları yaradılıb. Vurğulamaq yerinə düşər ki, 1995-2021-ci illər ərzində müstəqillik dövründə Azərbaycanda 67 əfv fərmanı və sərəncamı qəbul edilib. Bunların nəticəsində 9 minə yaxın məhkum azadlığa buraxılıb. Qeyd olunan dövr ərzində parlamentdə 11 amnistiya qərarı qəbul olunub. Həmin amnistiya qərarlarından sonuncuları Heydər Əliyev Fondunun prezidenti, Mehriban xanım Əliyeva deputat fəaliyyəti dövründə təqdim edib. 2009, 2013, 2016-cı illərdə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın irəli sürdüyü təşəbbüslər nəticəsində qəbul edilən amnistiya aktları insanların sevincinə səbəb oldu. 2016-cı ilin amnistiya aktı 10 mindən çox məhkumu əhatə edib və 3 minə yaxın şəxs penitensiar müəssisələrdən buraxılıb.

**Dünən Zəfər Günü ilə bağlı Amnistiya Aktının icrası tam başa çatıb. Ədliyyə Nazirliyinin İnsan Hüquqları və ictimaiyyətlə əlaqələr İdarəsinin rəisi Aynur Sabitova deyib ki, ötən il noyabrın 5-də qəbul edilmiş Zəfər Günü münasibətilə amnistiya aktı Prezident İlham Əliyevin humanist siyasətinin növbəti təzahürüdür.** O qeyd edib ki, Amnistiya Aktının icrası üçün 4 ay müəyyən edilib, martın 5-də isə onun icrası artıq başa çatıb. Nazirliyin Cəzaların icrasına nəzarət üzrə müfəttişliyin rəisi Malik Ələkbərov deyib ki, Zəfər Günü ilə bağlı imzalanan Amnistiya Aktı ümumilikdə 15 min 450 nəfərə tətbiq olunub. O qeyd edib ki, 8626 nəfər cəzadan azad edilib, 6489 nəfərin cəzası azaldılıb, 332 nəfərin cinayət təqibinə xitam verilib. Malik Ələkbərov onu da deyib ki, Amnistiya aktı 735 qadına, 45 yetkinlik yaşına çatmayana, 491 nəfər 60 yaşına çatmış şəxsə, 83 əcnəbi vətəndaşa şamil edilib. Eyni zamanda iki il ərzində Penitensiar Xidmət yanında xüsusi komissiya tərəfindən 3560 məhkumla bağlı məhkəmələrə müraciət edilib və onlar vaxtından əvvəl cəzadan azad olunub. 840 məhkum isə məhkəmə qərarı ilə məntəqə tipli cəzaçəkmə müəssisinə keçirilib. Amnistiya Aktı ilə 1200 nəfər məhkum pul cəriməsi cəzasından azad edilib. Cərimələrin miqdarı ümumilikdə 1 milyon 500 min manat olub. Akt 86 Vətən müharibəsi iştirakçısına da şamil olunub. Qeyd olunub ki, 2000-ci ildən bu vaxta qədər Azərbaycanın Cinayət Məcəlləsinə 1000-ə yaxın dəyişiklik edilib. Dəyişiklik nəticəsində qərarlardan şikayət vermək, məhkumların pulsuz müayinələrdən keçirilməsi, onların telefonla danışmaq və digər hüquqları təmin edilib. Bu prosesdə, həmçinin 2200-ə yaxın məhkum cəzadan azad edilib. Ədliyyə Nazirliyinin İnsan Hüquqları və ictimaiyyətlə əlaqələr İdarəsinin rəisi Aynur Sabitova deyib ki, yetkinlik yaşına çatmayan məhkumlar üçün isə yeni cəzaçəkmə müəssisəsi inşa olunub. O bildirib ki, artıq binanın tikintisi tam başa çatıb: "Bina tam standartlara uyğun inşa edilib. Binada yetkinlik yaşına çatmayan məhkumlara psixoloji xidmətlər üçün də şərait yaradılıb. Yaxın günlərdə bina istifadəyə veriləcək və yetkinlik yaşına çatmayan məhkumlar ora köçürüləcək". Amnistiya aktının icrası ilə bağlı Ədliyyə Nazirliyi Probasiya Xidməti tərəfindən 5730 nəfərin ölkədən çıxışına qoyulan qadağa götürülüb.

***Əhməd Şahidov: "Dövlətimiz humanist siyasət yürüdür, müxtəlif dövrlərdə cinayət törətmiş, cəzalarının bir hissəsini çəkmiş, islah olunmuş məhbusların vaxtından əvvəl azadlığa buraxılması təmin olunur"***

**Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri, hüquq müdafiəçisi Əhməd Şahidov "Şərq"ə deyib ki, son 18 ildə imzalanan 35 əfv sərəncamı 5600-dən çox məhkuma şamil olunub.**

**Ekspertin sözlərinə görə, belə Amnistiyalar minlərlə ailəyə sevinc bəxş edir:** "Əfv qərarları dövlət başçısı cənab İlham Əliyevin siyasətinin mühüm hissəsinə çevrilib. İllərdir ki, milli və dövlət bayramları ərəfəsində ölkə rəhbəri əfv sərəncamları verir. Amnistiyalar həm də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə baş tutur. Bunu ancaq təqdir etmək olar. Dövlətimiz humanist siyasət yürüdür, müxtəlif dövrlərdə cinayət törətmiş, cəzalarının bir hissəsini çəkmiş, islah olunmuş məhbusların vaxtından əvvəl azadlığa buraxılması təmin olunur. Əfsuslar ki, bəzi hallarda əfv olunmuş insanlar yenidən cinayət törədərək cəzaçəkmə müəssisələrinə geri dönürlər. Ümid edirik, amnistiyaya düşən vətəndaşlarımız dövlət başçısının bu jestini yüksək dəyərləndirəcək və cəmiyyətə inteqrasiya olunmaq üçün əllərindən gələni edəcəklər. Dövlətə, millətə faydalı olacaq və ölkə rəhbərinin siyasətinə dəstək verəcəklər".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# "Dnepr çayı şərq və qərb arasında sərhəd olacaq"

## Fuad Abbasov: "Ukraynanın şərqi Rusiyaya birləşdirildikdən sonra xırda dövlətlər yaranacaq"

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Antalya şəhərində Ukrayna və Türkiyə XİN başçıları ilə keçirdiyi üçtərəfli görüşdən sonra mətbuat konfransında bir sıra proqnozlarla çıxış edib.**

Rusiya XİN rəhbərinin Ukrayna ilə bağlı verdiyi açıqlamalar insanlarda qəzəb doğurub.

Lavrov Ukraynaya hücum etmədiklərini bildirib: "Digər ölkələrə hücum etmək fikrimiz yoxdur. Heç Ukraynaya da hücum etməmişik. Sadəcə, xəbərdarlıq edirik".

Həmçinin rusiyalı diplomat qeyd edib ki, hazırda Ukraynada hərbi əməliyyatlar plan üzrə davam edir: "Bütün əməliyyatlar plan üzrə gedir. Bizim Qərb həmkarlarımız bütün prinsipləri tapdalayaraq Ukraynaya ölümcül silah göndərirlər".

**Lavrovun açıqlamasındakı məsajı "Şərq"ə şərh edən tanınmış jurnalist, siyasi analitik Fuad Abbasov bildirib ki, Lavrov Putinin fikirlərini təkrarlayıb:** "Lavrovun bu açıqlaması Putinin bu ilin fevralın 21-də Luqansk və Donetsk bölgələrinin "müstəqilliyinin" tanınması ərəfəsində verdiyi açıqlamaya bənzəyir.

Putin demişdi ki, ümumiyyətlə, Ukrayna deyilən bir ölkə yoxdur. Bu, Sovet İttifaqının Ukraynaya hədiyyəsi olub. Belə bir ölkənin qurulması səhv idi. Həmçinin o vurğulamışdı ki, Leninin, bolşeviklərin buraxdığı səhvi düzəldəcək".

**Ekspertin fikrincə, Ukrayna iki hissəyə bölünəcək:**

Fikrimcə, Ukraynanın şərq hissəsi Rusiyaya birləşdirildikdən sonra orada xırda qondarma dövlətlər yaradılacaq. Moskva Avropa ilə Ukrayna arasında bufer zona yaratmaqla, Kiyevi Qərb dövlətlərindən təcrid etmiş olacaq. Savaş bitdikdən sonra isə şərqi və qərbi Ukrayna formalaşacaq. Dnepr çayı şərq və qərb arasında sərhəd olacaq".

**Xanlar Əlibəy**

# Zelenskinin qərarı Rusiya üçün fəlakət olmayacaq

## Əslində işçi ukraynalılar Rusiyada daha çox fəaliyyət göstərirlər

**Ukrayna Rusiyaya məxsus əmlakı müsadirə edəcək. Ukrayna Prezidenti Vladimir Zelenski rəsmi Kiyevdə Rusiya Federasiyasına və onun vətəndaşlarına aid əmlakın heç bir kompensasiya ödənilmədən müsadirəsini nəzərdə tutan qanun layihəsi imzalayıb. Bu barədə Ukrayna Ali Radasının mətbuat xidməti məlumat verib.**



Sənəddə qeyd edilir ki, bu qanun Ukraynaya qarşı böyükmiqyaslı müharibəyə başlamış bir dövlət kimi Rusiya Federasiyasına məxsus mülkiyyətin sosial, o cümlədən hərbi zərurətdən irəli gələrək müsadirəsinin hüquqi əsaslarını müəyyən edəcək.

Qeyd edək ki, Rusiyada da eyni ilə xarici şirkətlər milliləşdirilə bilər. Layihəyə əsasən, dövlətə məxsus "Vneşekonombank" v? ixracа zəmanət agentliyi xarici şirkətlərin əmlakını nəzarət hüququ əldə edəcək.

**Politoloq Əhəd Məmmədli "Şərq"ə açıqlamasında bildirib ki, bu, normaldır:**

"İki dövlət savaşır. Əlbəttə ki, onlar bir-birinə hərbi, siyasi, iqtisadi baxımdan ziyan vurmaq məqsədi güdürlər. Çünki artıq hər iki dövlət düşmən ölkələrə çevriliblər. Rəsmi Moskva Ukrayna, rəsmi Kiyev Rusiya şirkətlərinə qarşı preventiv zərbələr endirir. Ukraynalılar işçi nöqteyi-nəzərdən Rusiyada daha çoxdur, nəinki ruslar Ukraynada. Ümumiyyətlə, 2014-cü ilə qədər Rusiya şirkətləri rəsmi Kiyevdə daha çox fəaliyyət göstərirdilər. Rusiya-Ukrayna müharibəsi başlayandan sonra isə rus şirkətləri oradan getməyə başlayıb. Hazırda düşünürəm ki, Zelenskinin bu qərarı Rusiya üçün ciddi bir zərbə olsun".

**Sücayət Mehti**

# Hər blokda bir ölüm kabusu...

## Bakının lift dərdi heç vaxt düzəlməyəcək

**Fövqəladə Hallar Nazirliyi Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-mədən Nəzarəti Dövlət Agentliyi sənayedə və dağ-mədən işlərində təhlükəsizliyin təmin edilməsi istiqamətində fəaliyyətini davam etdirir.**

Nazirlikdən verilən məlumata görə, Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Bakı şəhəri, Əhmədli qəsəbəsi, M.Hadi küçəsi 77 ünvanında yerləşən doqquzmərtəbəli yaşayış binasının liftinin qəzalı vəziyyətdə olması barədə vətəndaş tərəfindən müraciət daxil olub. Müraciətlə əlaqədar dərhal FHN Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-mədən Nəzarəti Dövlət Agentliyinin müfəttişləri tərəfindən həmin binadakı liftə baxış keçirilib. Baxış zamanı həqiqətən də liftin müvafiq təhlükəsizlik tələblərinə cavab verməmən istismar edildiyi və beləliklə, insan həyatı və sağlamlığı üçün təhlükə yaratdığı müəyyən olunub. Qeyd olunanlar nəzərə alınaraq, liftdə aşkar olunmuş texniki təhlükəsizliklə bağlı pozuntuların aradan qaldırılması üçün aidiyyəti müəssisə qarşısında məsələ qaldırılıb və pozuntuların qısa müddətdə aradan qaldırılaraq liftin təhlükəsiz istismarı təmin edilib.

Baş verən hadisə bunu göstərir ki, çoxmərtəbəli binalarda lift problemi aktuallığını, təəssüf ki, saxlayır. Nəinki sovet dönəmində tikilib istismara verilmiş yaşayış binalarında, həmçinin, sonrakı dövrdə özəl şirkətlər, mənzil-tikinti kooperativləri, məhdud məsuliyyətli cəmiyyətlər tərəfindən tikilmiş və tikilməkdə olan yaşayış binalarında sakinlər lift problemi ilə tez-tez qarşılaşır. Lift işləmirsə yuxarı mərtəbələrdə yaşayanların halını təsəvvür etmək çətin deyil. Problem həm də bundan qaynaqlanır ki, sovet dövründə tikilmiş yaşayış binalarının bir çoxu istismar müddətini artıq başa vurub deyə, liftlər təzələnmir, yeniləri ilə əvəz olunmur. Necə deyərlər, cari təmir işləri aparılır, bu da müvəqqəti xarakter daşıyır, bir müddət sonra lift yenə xarab olur. MTK-ların inşa etdiyi binalarda isə lift problemi lifti quraşdırmış şirkətin bəzən yoxa çıxması səbəbindən baş verir. Binaların komendantları liftə cavabdehlik daşımalı olan şirkəti axtarsalar da, tapmırlar. Sakinlər də 10-15, hətta 20-22-ci mərtəbələrə payi-piyada düşüb-qalxmalı olurlar. Qısası, zülm, zillət!



*Yuxarı mərtəbədə yaşayanlar bu əzabın nə olduğunu daha yaxşı bilirlər*

**Bələdiyyələrin Fəaliyyətinin Təbliği İctimai Birliyinin sədri Vüqar Tofiqli "Şərq"ə açıqlamasında qeyd etdi ki, yaşayış binaları, yaşayış kompleksləri inşa edilərkən lift məsələsinə ciddi yanaşılmalıdır:**

- Xüsusən əgər bina çoxmərtəbəlidirsə, lift xidmətinin davamlı, fasiləsiz işləməsi təmin edilməlidir. Problem bundadır ki, binalar tikilərkən müxtəlif şirkətlərlə müqavilə imzalanır, hansısa şirkət binanın liftlə təminatını üzərinə götürür, lift quraşdırılır, şirkət də işini başa çatdırıb gedir. Bir müddət sonra liftdə nasazlıq yarandıqda isə həmin şirkəti təmir işinə cəlb etmək olmur. Bildirirlər ki, onların işi lifti quraşdırmaqdan ibarət idi, işlərini də yerinə yetiriblər. Amma belə olmamalıdır. Lifti quraşdırmış şirkət onun daimi fəaliyyətinə cavabdehlik daşımalıdır. Çünki bina sakinləri digər kommunal xidmətlərə görə ödəniş etdikləri kimi, lift xidmətinə görə də ödəniş edirlər. FHN qəza baş verəndə hadisə yerinə gəlir. Xarab olmuş lifti düzəltmək FHN-in işi deyil. Bina dövlət balansındadırsa, nasaz liftə cavabdeh Bakı Lift İdarəsidir. Bina özəl tikinti şirkətinindirsə, kooperativdirsə, o zaman Bakı Şəhər İcra Hakimiyyəti nəzdindəki müvafiq qurumla müqavilə bağlanmalı və liftlərin təhlükəsizliyinə, daimi fəaliyyətinə nəzarət olmalıdır. Sakinlərin təhlükəsizliyi bir nömrəli məsələdir.

**Məlahət Rzayeva**



## 1 milyondan çox uşaq Ukraynanı tərk edib

**Rusiyanın hücumu səbəbindən artıq 1 milyondan çox uşaq Ukraynanı tərk edib.**

Bu məlumatı martın 10-da Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF) dərc edib.

Beynəlxalq təşkilatın xəbərinə görə, kiçik ukraynalıların əksəriyyəti ailələri ilə birlikdə Polşa, Macarıstan, Slovakiya, Moldova və Rumıniyaya qaçıb.

**UNICEF-in Avropa və Orta Asiya üzrə Regional direktoru Afşan Xan deyib:** "Qaçan uşaqların sayı heyrətamizdir, bu, Ukraynada uşaqlar və ailələr üçün vəziyyətin nə qədər çıxılmaz olduğunu göstərir. Uşaqlar təhlükəsizlik axtarışında bildikləri hər şeyi tərk edirlər. Bu, ürək ağrıdır".

Fond tərəfdaşları ilə birlikdə 20 min uşaq və anaya kömək məqsədilə Ukraynanın 5 müxtəlif bölgəsində müharibədən zərər çəkmiş 22 xəstəxanaya tibbi ləvazimatların çatdırılmasını vəd edir və bir sıra digər tədbirlər həyata keçirir.

*Bundan əlavə, UNICEF Ukraynada humanitar yardım və evakuasiya üçün təhlükəsiz, sürətli və maneəsiz çıxışa çağırır.*

"Biz ehtiyacı olan uşaqlara və ailələrə kömək etmək üçün əlimizdən gələni edirik, lakin müharibə bitməlidir. Sülh yeganə davamlı həll yoludur", - Xan deyib.

## Dünyanın danışdığı Marianna ana oldu

Onlar hazırda istilik olmayan evdə yaşayırlar



**Ukraynanın Mariupol şəhərində xəstəxananın bombardman edilməsindən sonra təxliyə olunarkən fotosu dünyada yayılan bloqer Marianna Podqurskaya ana olub.**

Qafqazinfo xəbər verir ki, bu barədə məlumatı jurnalist Olqa Tokaryuk verib. Podqurskaya Mariupolda qız övladı dünyaya gətirib. Onun sözlərinə görə, ana və uşağın vəziyyəti qaydasındadır. Lakin onlar hazırda istilik olmayan evdə yaşayırlar.

## 60 min qiyməti var

Sibel Canın bahalı boyunbağısı gündəm olub



**Altı ildən sonra səhnəyə rekord sayda konsert verərək qayıdan müğənni Sibel Canın bahalı boyunbağısı gündəm olub.**

**Olay xəbər verir ki, sənətçi bu aksesuarı "Rafi Roy Diamonds" brendindən 35 min dollara, yəni təxminən 60 min manata əldə edib.**

**Boyunbağı zümrüd və brilliant daşlarından hazırlanıb.**

**Qeyd edək ki, Sibel tez-tez bahalı geyimləri, stili ilə gündəmə gəlir. O, əksər hallarda səhnədə tanınmış brendlərin libaslarını geyinir.**

## Elektriklə işləyən avtomobil alanlara 6 min avroyadək dövlət dəstəyi veriləcək



**İtaliyada avtomobil sənayesini dəstəkləmək üçün elektriklə işləyən yeni avtomobil alanlara 6 min avroyadək güzəştlər tətbiq olunacaq.**

**Azərtac xəbər verir ki, dəstək mexanizmi təkcə elektriklə işləyən avtomobillərə deyil, həm də hibrid (PHEV) və ən son "Avro 6" emissiya texnologiyasına malik daxili yanma mühərrikli avtomobilləri əhatə edəcək.**

**Belə ki, elektriklə işləyən avtomobilin 6 min avroluq təşviq paketinin əhatə dairəsinə düşməsi üçün onun satış qiyməti maksimum 35 min avro olmalıdır. Hibrid avtomobillər üçün isə 2500 avro güzəşt nəzərdə tutulur ki, bu avtomobillərin də satış qiyməti 45 min avroya qədər olmalıdır.**

***Qeyd edək ki, İtaliya hökuməti avtomobil sənayesini dəstəkləmək üçün 2030-cu ilə qədər ümumilikdə 8,7 milyard avroluq büdcə ayırıb. Həmin vəsaitin 700 milyon avrosu bu il üçün nəzərdə tutulub.***

## Beşinci dəfə barışdılar



**Türkiyəli aktrisa Müjdə Uzmanla aparıcı Oğuzhan Uğur yanvarda 4-cü dəfə ayrıldıqlarını açıqlamışdılar.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, cütlük münasibətlərinə daha bir şans verərək 5-ci dəfə barışıb. Bu barədə aktrisa sosial şəbəkədə məlumat verib.**

**Müjdə sevgilisinin ona göndərdiyi gülləri İnstaqram hesabında paylaşaraq ürək işarəsi qoyub.**

***Qeyd edək ki, cütlük 7 ay ərzində 4 dəfə münasibətlərini sonlandırmışdı.***



# Ukraynalı qadının göz yaşları...

## "Anam, atam "biz Vətən xaini deyilik" dedilər..."

**Valideynlərini ziyarət etmək üçün Türkiyədən Ukraynaya getmiş gənc qadın Shizhana Bora özüylə apardığı yaş yarımlıq qızı ilə müharibənin cənginə düşüb. Gənc qadın həftələr sonra, nəhayət, Türkiyəyə qayıda bilib. Həyat yoldaşı Kutsal Boraya və evinə qovuşub. Shizhana Ukraynada baş verənlər barədə İHA müxbirinə danışıb.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, gənc qadın valideynləri - 48 yaşlı anası və 52 yaşlı atasına Türkiyəyə getməyi təklif etdikdə, onlar Ukraynanı tərk etməyəcəklərini deyiblər: "Anam hərbi hospitalda çalışan həkimlərə yardım edir, həm də yaralılar üçün yemək bişirir. Anamı da, atamı da Türkiyəyə dəvət etdim. Ancaq onlar "hər kəs çıxıb gedərsə, bəs Vətəndə kim qalacaq? Taleyimizə nə yazılıbsa, onu da yaşayacağıq. Gərəkirsə, barada öləcəyik, amma Vətənimizi tərk etməyəcəyik", dedilər. Anam dedi ki, qızım, sənin övladın var, sən qayıt. Bizsə, burdakı övladlarımıza, əsgərlərimizə yardım edəcəyik". Shizhana deyib ki, atası da cəbhəyə gedib, ondan hələ də bir xəbər ala bilməyiblər.

Türkiyə vətəndaşı ilə evli olan gənc qadın evinə döndüyü üçün özünü xoşbəxt hiss etdiyini deyib, lakin əlavə edib ki, qəlbi, ruhu Ukraynadadır: "Ailəm qəhrəmandır. Evimə, həyat yoldaşıma qovuşdum. Ancaq qəlbim, ruhum Ukraynadadır. Əhalini, uşaqları öldürürlər. Amma biz güclü ölkə, güclü millətik. Bu müharibə sona çatmadan rahatlığımız olmayacaq. Sülh üçün nə lazımdırsa, onu edək".

***"Ailəm qəhrəmandır. Evimə, həyat yoldaşıma qovuşdum. Ancaq qəlbim, ruhum Ukraynadadır"***





**Məlahət**



# İki şəhərdə həyat sönüb

## Qlobal istiləşmə Yer kürəsinə təsirini artırıb



**Qlobal istiləşmə, iqlim dəyişikliyi Yür kürəsində təsirlərini getdikcə daha çox bəlli edir. Planetin bəzi yerlərində buzlaqlar əriyir, bəzi yerlərdə isə dözülməz istilər yaşanır. Qlobal istiləşmə səbəbindən 2 şəhər - Pakistanın Sind əyalətindəki Cakobabad və Birləşmiş Ərəb Əmirliklərinin Şariqə şəhəri insan həyatı üçün təhlükəli şəhərlər sırasına daxil edilib.**

Bu şəhərlərdə yaşamaq ölümcüldür. Bu barədə ingilis mediası "Telegraph"da məlumat dərc edilib. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, "Telegraph"ın yazdığına görə yuxarıda adları çəkilən 2 şəhər kəskin isti iqlim şəraitinə görə insan yaşayışı üçün uyğunsuz elan edilib. Pakistanın şərqində yerləşən Sind əyalətinin mərkəzi hissəsindəki Cakobabad şəhərində havanın temperaturu 52 dərəcə istini göstərir. Şəhər yaranışından bu yana ən qovurucu tarixini yaşayır. Şəhərin təxminən 2 milyon əhalisi var. Burada artıq il boyu havanın temperaturu 50-52 dərəcədən aşağı enmir. İl boyu, demək olar, yalnız yay fəsli hökm sürür. Bu da insan həyatı üçün böyük təhdiddir. 2021-ci ildən başlayaraq şəhər sakinləri dəhşətli istilərə artıq dözə bilmir və şəhəri tərk edənlərin sayı getdikcə artır. Varlı, imkanlı ailələr kondisioner istifadə edir və isti ilə mübarizə apara bilirlər. Bununla yanaşı varlı ailələr də hava şəraiti daha münasib olan bölgələrə köçür. Yoxsulların isə istidən qorunmaq üçün heç bir imkanları, vasitələri yoxdur. Buna görə də əhali dəniz sahilindəki Karaçi və ya Quetta şəhərlərinə köç edir. Köç dalğasının Asiya və Afrika ölkələrində axın şəklini alacağı proqnozlaşdırılır. BƏƏ-nin Şariqə şəhəri də eyni durumdadır. Şariqə Bəsrə körfəzinin sahilində yerləşir. Şəhər son illərdə ciddi inkişaf edib və saysız-hesabsız göydələnlər ucalır. Həm də bu şəhər son illərdə ciddi iqlim dəyişikliyi problemi ilə üz-üzədir. Burada da havanın temperaturu il ərzində 50 dərəcə istidən aşağı düşmür. Bu səbəbdən də daha çox insanın şəhəri tərk etdiyi bildirilir. Bir neçə gün öncə Dubay şəhərinə yağdırılan süni yağış Şariqə sakinlərinə də ümid verib. Şəhər sakinləri süni yağış hesabına temperaturun azacıq da olsa mülayimləşəcəyinə ümid bəsləyir. Əks halda şəhərdə bir nəfər də qalmayacaq.

**Məlahət**

## Seda Sayan səhnədə şok yaşadı

Birgə çalışdığı musiqiçi ona evlilik təklifi etdi



**Türkiyəli müğənni Seda Sayanın birlikdə çalışdığı musiqiçi Çağlar Öktendən evlilik təklifi aldığı iddia edilir.**

"Şərq"in məlumatına görə, 6 dəfə ailə həyatı quran və Oğulcan Engin adlı oğlu olan Seda Sayan yenidən nikah masasına oturmağa hazırlaşır.

"Milliyet Cadde"də yer alan xəbərə görə, Çağlar Ökten 14 fevral Sevgililər Günü gecəsi Beyoğluda bir məkanda səhnəyə çıxıb. Ç.Ökten səhnəsi bitdikdən sonra qəfildən cibindəki tək qaş üzüyü çıxararaq məşhur sənətçiyə evlilik təklifi edib. Təklifə görə şoka düşən 59 yaşlı sənətçi özündən 25 yaş kiçik Çağlar Öktenə "hə" cavabını verib.

**Aygün**

## Qadın müəllim əxlaqsız çıxdı

Şagirdinə burqer alıb, onunla yatdı





**İngiltərədə 14 yaşlı şagirdi ilə intim əlaqədə olan müəlliməyə 6 il həbs cəzası verilib. Hadisə ilə bağlı ortaya çıxan təfərrüatlar hər kəsi şoka salıb.**

Milli.Az haberler.com-a istinadən xəbər verir ki, 23 yaşlı müəllimə yeniyetmənin ailəsini belə aldatmağa müvəffəq olub. Oğlanın guya sevgilisinin anası olduğunu iddia edib. O, oğlanla qızı Kaylanın yaxşı anlaşdığını və ünsiyyətdən məmnun olduqlarını paylaşıb.

*Oğlanla cinsi əlaqəyə girməzdən əvvəl ona marketə aparıb, müxtəlif şirniyyatlar və hamburger alıb. Hətta gənc tələbəyə avtomobilində marixuana çəkməyə də icazə verib.*

## Acunun keçmiş arvadı çılpaq şəklini paylaşıb, sonra sildi



**Sosial media paylaşımları və misirli iş adamı Mohammed Alsaloussi ilə yaşadığı eşqlə tez-tez gündəm olan Şeyma Subaşı İnstaqram hesabındakı son paylaşımı ilə bir daha gündəm olub.**

31 yaşlı Subaşı paylaşdığı çılpaq şəklini qısa müddətdə silib.